Əhməd Sabiri Həmadani

# İSLAMDA İMAMƏT VƏ XİLAFƏT



Görkəmli alim Ayətullah Əhməd Sabiri Həmədani islam tarixi, dini və məzhəbləri haqqında otuza yaxın dəyərli əsərin müəllifidir. O, 1923-cü ildə Həmədan şəhərində anadan olmuş. Qum şəhərində təhsil almış və yüksək dini elmi rütbəyə nail olmuşdur. Onun əsərləri ərəb, fars, türk və Azərbaycan dillərində dəfələrlə nəşr edilmişdir. Sabiri Həmədani dünyanın 35 məmləkətində, o sıradan İngiltərə, Fransa, Almaniya, İtaliya, Çin, Avstraliya, Hindistan, Pakistan, Misir, Türkiyə və başqa ölkələrdə islam təbliğatla məşğul olmuşdur. Hazırda o, İslam İnqilabının rəhbəri vəliyi-fəqih ağaye Ayətullahül-üzma Hacı Seyyid Xamneinin Azərbayacanda nümayəndəsi kimi fəaliyyət göstərir.

Sabiri Həmədani ərəbcə, farsca və türkcə şeirlər yazır. O, ziyalılar, alimlər və ədəbiyyatçılarla çox sıx əlaqə saxlayır və Fizuliyə həsr edilmiş konfranslarda iştirak edir. Bu kitab alimin Azərbaycan dillərində nəşr etdiyi yeddinci əsəridir.

**AYƏTULLAH ƏHMƏD SABİRİ HƏMƏDANİ**

# İSLAMDA İMAMƏT VƏ XİLAFƏT

**BAKI - «Sabah» - 1996**

**Ayətullah Əhməd Sabiri Həmədani.** İslamda imamət və xilafət. BAKI - «Sabah» - 1996, 42 səh.

**ISBN 5-86106-132-7**

A $\frac{480260101-6}{029-96}$ Qrifli nəşr

**© «Sabah» nəşriyyatı, 1996**

# MÜQƏDDİMƏ

*İlahi, sən özün mənə kömək ol ki, haqqı dərk edim, həqiqəti yazım, deyim və ona əməl edim. Qələmimi və dilimi batil söz deməkdən və batil söz yazmadan çəkindir ki, haqq əhlinə bir xidmət edə bilim; fikrimi yersiz tayfa və məzhəb təəsüblərindən hifz elə ki, pisi pis, yaxşını-yaxşı göstərim, keçmişin və indinin batil siyasətlərinə uyaraq həqiqətlərin üzərinə pərdə çəkməyim. Nə qədər çirkin bir iş və necə bir cinayətdir ki, hər sahədə elmi və tədqiqi axtarışlar aparıldığı, hər kəsin cəmiyyətin cinayətkarlarını tanımaq istədiyi bir əsrdə İslam tarixinin ən cinayətkar bir ünsürü olan Yezid ibn Müaviyəni əmirəl-möminin və Peyğəmbərin xəlifəsi kimi təqdim edən bir qrup meydana çıxmış, onun haqqında kitab yazmış və onu tərifləmişdir?! Buna görə belə çıxır ki, zülmkarlar Bosniya, Qarabağ, Fələstin müharibələrinin cinayətkarlarının cinayətlərinə bir gün göz yumacaq və onları mədh edən kitablar yazacaqlar! Elə indinin özündə də həmin cinayətkarları müdafiə edənlər vardır.*

*Azərbaycan xalqının tarixinin təqribən yuz ili kommunist rejimi dövründə keçmişdir. Uzun bir müddət bu xalqın əqidəsi, məzhəbi, alimləri, şairləri təhqir olundu, lakin heç kəs keçmiş Sovetlər birliyinin bu əməllərindən heç nə demədi, Azərbaycanın və Qafqazın adını belə çəkmədi və bu torpağın insanları yandılar və səbr etdilər.*

*İndi istiqlal neməti bu millətin nəsibi olmuş, rahat nəfəs ala bilir, öz mənliyini və şəxsiyyətlərini üzə çıxara bilir və: «Mənim Nizamilərim, Fizulilərim, Xaqanilərim, Seyyid Əzimlərim, Nəsimilərim və yüzlərlə, minlərlə alimin, şairim, yazıçım vardır!» - söyləyə bilir. Amma yenə bu torpağın düşmənləri libasını dəyişərək islamsevərlik qiyafəsində meydana atılaraq bu məmləkətin əziz övladlarını düzgün yoldan çıxarır və ya, daha dəqiq desək, xəyanət edirlər.*

*Bu gün bəşər hüququnun qorunması tərəfdarları olduğunu iddia edən bütün islami və qeyri-islami məmlələtlərin təzə*

*istiqlaliyyət əldə etmiş bu cümhuriyyətlərə köməklik və yardım etmələri, onlara dostluq əlaqələri yaratmaları çox vacibdir ki, onlar dikəlib ayağa qalxa bilsinlər, iqtisadiyyat və mədəniyyətlərini gücləndirə və öz torpaqlarını mühafizə də bilsinlər.*

*Lakin təəssüf ki, bu xalqın istiqlalına və iqtisadiyyatına nəinki kömək göstərilmir, əksinə, hər kəs bu sitəm görmüş Azərbaycan xalqının onların çaldığı ilə oynamasını, onun torpağından, sənayesindın, neftindən, qazından və insan qüvvəsindən daha çox mənfəət əldə etməsini və bu sərvətin cüzi bir hissəsini də Azərbaycan xalqına verilməsini istəyir: məhşur məsələdə olduğu kimi, aclara və yoxsullara ahdan və nalədən başqa bir şey qalmasın.*

*Deyirlər, mömin bir şəxs bir qoyunu qurban kəsdi və bir mollaya dedi: «Bu qurbanlığı böl». Molla söylədi: «Göz üstə! Elə böləcəm ki, hamı razı qalsın». Dedi: «Başı mənim, döşü mənim, altındanda beşi mənim. Qalanları da başqa kasıblar və möminlər arasında böl».*

*Məsihilər gəlmişlər, bizim övladlarımızı öz dininə dəvət edirlər. Zərdüştilər də tamahlarını itiləyiblər. Buddaçılar da bəzilərini öz məzhəblərinə tərəf çəkmək istəyirlər. Bir qism də bizim mənliyimizi və tariximizi dəyişmək istəyir.*

*Bəziləri də bizim əziz övladlarımızı öz ata-analarının əqidəsindən döndərməyə, məzhəb və dini istiqamət baxımından Azərbaycan xalqı arasında ixtilaf salmağa çalışırlar ki, bu məmləkətdə öz siyasətlərini yeritsinlər.*

*Azərbaycan istiqlalından əvvəl din bu məmləkətdə unudulmuşdu və heç də bu xalqın dini və mənəvi dünyasının fikrini çəkmirdi. Lakin o, istiqlal qazanandan sonra bu xalq öz dinini və məzhəbini tanıyıb dərk etdi. Azərbaycanda bir qism adam əli bağlı namaz qılır, böyük bir dəstəsi isə şiə və Peyğəmbər (s) Əhli-beyti (ə) naminə əli açıq namaz qılır; hər ikisi də üzü qibləyə dayanır və: «La ilahə illəlah Məhəmmədən Rəsulallah iyaka nəbudu və iyakə nəstəin» - söyləyir. Şiə də belə deyir, sünni də.*

*Lakin dini siyasətdən ayrı tutan bəzi məmləkətlərdə xalqın dini və məzhəbi hisslərindən və siyasətləri üçün istifadə edirlər, ölkə cavanlarının və məsum övladlarının məlumatsızlığından faydalanaraq məkirli bir siyasətlə onları öz atasının, anasının əqidəsindən uzaqlaşdırırlar, alimlərin tədqiqatçıların öyrənib fikir söyləməli olduqları ən mühüm məsələləri məlumatsız adamların yazıları və söz-söhbətləri ilə xalqın arasında yayırlar. Bu mövzuların işində ən mühümü «İslamda imamət və xilafət» məsələsidir ki, bu kiçik kitabda heç bir təəssüb göstərmədən ondan bəhs edilmişdiir və o, indiyə qədər də öyrənilməmişdir.*

# İSLAMDA İMAMƏT VƏ XİLAFƏT

İslamın böyük peyğəmbəri Həzrət Məhəmməd (s) qırx yaşında ikən rəsalətə çatdı və xalq rəhbərlik etməyə və doğru yol göstərməyə başladı. On üç il Məkkəyi-müəzzəmədə zəhmətlərə və məşəqqətlərə dözərək peyğəmbərliyin böyük və ciddi vəzifəsini yerinə yetirdi. Əbu Talibin və peyğəmbərin xatunu Xədiceyi-Kubranın (s.ə) vəfatından sonra Məkkə daha Məhəmməd (s) üçün təhlükəsiz yer deyildi. Məkkə müşrikləri onun öldürülməsinə qərar verdilər. İslam peyğəmbəri Əli ibn Əbu Talibi (ə) öz yerinə qoydu, özü Mədinəyə hicrət etdi və İslamın hicri tarixi o gündən başladı.

Həzrət Məhəmməd (s) on il Mədinədə qaldı; bu müddətdə İslam təşkilatını yaratdı və müsəlmanlar Məkkədən hicrət edib Mədinəyə gəldilər. Sonra İslam dini yavaş-yavaş qüvvətləndi. Məhəmməd (s) mühacirlər və ənsar arasında qardaşılıq əhd-peymanı bağladı; bir qardaşlıq ittifaqı yaratdı ki, hələ dünyada ona bənzəri olmamışdı, məscidlər bina edildi ki, İslam təlimatlarının və maarifin mərkəzinə çevrildi. Hətta hərbi və döyüş, qəzavət və s. məsələlər də bu məscidlərdə müzakirə olunurdu.

Bütün bu iqtisadi və hərbi çətinliklərə baxmayaraq, Həzrət Məhəmməd (s) yeni bir cəmiyyət yarada bildi və xalqı cəhalət və maarifsizlikdən elmə, imana, şəhamət, fədakarlığa, insanı əxlaqına və insanlıq kəramətinə doğru yönəltdi.

Əgər kimsə İslam təlimatlarına və peyğəmbərin insanlar üçün vacib, haram və müstəhəb buyurduğu göstərişlərə nəzər salsa bilər ki, İslam dini bir fərdin doğulduğu gündən öldüyü günə qədər insan həyatının hər bir sahəsi - ticarət, siyasət, ibadət, müsafirət, izdivac, qonaqlıq, dostluq, müştərək ailə

həyatı, ata-ana, ailə ilə rəftar, övlad tərbiyəsi, hətta əkin-bicin, heyvandarlıq və insan hüquqlarına riayət kimi mühüm məsələləri bəyan etmişdir. Həccətül-vidada peyğəmbər son həcc səfərində, mübarək ömrünün son illində Ərəfatda buyurmuşdur: «Sizi behiştə yaxınlaşdıran hər şey barədə sizə göstəriş vermişəm və sizi səadətdən və behiştdən uzaqlaşdıran hər şeyi sizə qadağan etmişəm». İslam peyğəmbəri söhbətlərində İslamın düşmənlərinin adını dəfələrlə çəkmiş, öz ölümündən sonra dinin başına gələcək bəlaları bəyan etmiş və Üməyya övladlarının İslamın bəlası və düşməni saymışdır ki, Əli ibn Əbu Talibin (ə) qılıncının və zülfüqarının zərbəsini dadmış və məğlubiyyətə uğramışdılar; bilirdi ki, onlar İslamdan intiqam almaq üçün fürsət gözləyirlər. Bu xətəri bəzən peyğəmbər yuxuda da gördü.

Şiə və sünni alimləri yazmışlar ki, İslam peyğəmbəri bir gecə yuxu aləmində gördü ki, meymunlar onun minbəri üstündə gəzirlər, aşağı düşürlər. Bu qəziyədən narahat oldu. Cəbrail nazil oldu və xəbər gətirdi ki, onlar Ümeyya övladlarıdırlar; sənin vəfatından sonra qüdrət sahibi olacaqlar və bu, bir fitnə və imtahandır. Deyirlər ki, İslam peyğəmbərini ondan sonra bir kimsə gülən görmədi və bu barədə Quran ayələri nazil oldu.[1]

## İSLAM PEYĞƏMBƏRİ İMAMƏT VƏ XİLAFƏT HAQQINDA VƏSİYYƏT ETMİŞDİR YA YOX?

İslam peyğəmbərinin göstərişlərində çox təkid edilmişdir ki, müsəlman olan şəxsin vəsiyyətnaməsi olmalıdır, ölümdən

[1] «Termizi» cild 2, səh. 35; Fəxri Razi «İsra» surəsi, ayə 26. İmam Siyuti, Təfsir.

sonra özünün mühüm işlərini, həmçinin borçlarını, alacaqlarını yazmalıdır, hətta hər gecə vəsiyyətnaməsini başı altına qoymalı və yatmalıdır (Burada onun vəsiyyətinin varisinə çatmasına işarə edilmişdir).

Peyğəmbərin bu tövsiyə və təkidi ilə bərabər, görəsən, onun özünün vəsiyyətnaməsi var idi ya yox? Özünün vəfatından sonra xilafət məsələsində də mühüm bir məsələ var idimi? O xilafət ki, hamının arzusu ilə və hamı ona tamah salmışdır! Əgər vəsiyyət etmişdirsə, kimə vəsiyyət eləmişdir? Əgər vəsiyyət etməmişsə, niyə? Nə üçün öz ümmətini bir-birinin canına salmış və böyük bir ixtilafın yaranmasına bais olmuşdur ki, indiyə qədər - 1400 ildir ki, davam edir və bu ixtilaf heç bir vəchlə rəf olunmağa qabil deyildir və bəlkə də kafirlərin müsəlmanlar üzərində üstünlüyünün əsas amillərindəndir?

Əgər bir milyardan artıq müsəlman birləşsəydi, Fələstin torpağı, İspaniya, Qarabağ və s. əldən getməzdi. Məgər bu bədbəxtlik və ixtilaf barədə kəramətli İslam peyğəmbəri bir şey bəyan etməmişdirmi? Hətta yemək, yatmaq üçün göstərişləri olan Peyğəmbər bunu bilmirdimi? Bu barədə bir vəsiyyəti yox idimi? Ya var idi və var, ancaq biz qəbul etmək istəməmişik? Əgər belədirsə, müsəlmanların bütün bədbəxtliklərinin günahı bizim boynumuzdadır.

Bir şəxs çoxlu əziyyət çəkir, qum, daş-kəsəkli bir torpağı təmizləyir və onu əkinə hazırlayır. İllərlə başqa bir zəhmət çəkir, orada meyvə ağacları əkir, o ağaclar bar və meyvə verir. Bütün bu zəhmətləri çəkən bu adam başqa bir məmləkətə getmək istəyir ki, oradan daha qayıtmayacaqdır. Ola bilərmi ki, o, həmin bağı başlı-başına buraxsın və ona baxmaq, mühafizə etmək üçün bir kimsəni təyin etməsin? Hər kəs gəldi,

ondan istifadə etsin, ona sahib çıxsın? Heç bir ağıllı kişi belə bir iş tutmaz!

Böyük şair Şəhriyar demişkən, bu ona bənzər ki, bir sürünü qurda tapşırsınlar:

*Bu olan işdimi ki, axşam çağı Allah çobanı*
*Çöldə Allah davarın boşlaya bica başına?*

Yəqin ki, peyğəmbərin bu barədə öz ümmətinə bir vəsiyyəti olmuşdur, çünki imamət və xilafətdən mühüm bir məsələ ola bilərmi? Amma gərək əvvəlcə imamətin və xilafətin nə olduğunu bilmək, sonra o barədə və peyğəmbərin vəsiyyəti haqqında danışmaq lazımdır.

## İMAMƏT VƏ XİLAFƏT NƏDİR?

Lüğətdə imam o şəxsə deyirlər ki, başqalarından öndə duran və möminlərin onun arxasında dayandığı camaat imamı kimi.

Bəzən imam o adamın ləqəbidir ki, bir elmdə başqalarından qabaqdadır; öz əsrində elmdə, əxlaqda qabaqçıldır. Ya Quranın təfsirində və hədisdə başqalarından üstün olan imam Siyuti kimi, imam Fəxri Razi və s. kimi. Və sünni qardaşlarımız Malik, Əbu Hənifə, Əhməd ibn Hənbəl, Məhəmməd ibn İdris Şafeiyə, İmam Malik, İmam Əbu Hənifə, İmam Əhməd və İmam Şafei deyərlər, çünki onların fikrinə görə, bu müctəhidlər öz əsrinin böyük şəxsiyyətləri olmuşlar və sonralar da bu cür çox imamlar dünyaya gəlmiş və gələcəklər; İslam cümhuriyyəti inqlabının rəhbəri İmam Xomeyni (r.ə) kimi. O, həqiqətən fiqh, üsul, təfsir, hikmət, irfan elmlərində, xüsusən siyasətdə öz əsrinin öndəri və bütün alimlərdən qabaq olmuşdur.

Lakin bizim söhbət açdığımız müqəddəs İslam dinində xilafət və imamət məsələsi başqa mənadadır; İslamda imamət böyük ilahi bir mənsəbdir ki, onun seçilməsi Allahın əmri ilədir, xalqın seçkisi ilə deyildir.

## İMAM VƏ İMAMƏT

Şiələr də, sünnilər də qəbul edirlər ki, İslam dinində imamət din və dünya işlərində bütün ümmətin başçısıdır. İmam o şəxsdir ki, insanların dünya və axirət işlərində hamının üzərində rəhbərliyə malikdir və qiyamət günü də insanları onların imamlarının adı ilə çağırarlar və Quranın «İsra» surəsi 77-ci ayəsində də bu mətləb təfsir olunmuşdur.

Aydındır ki, insanların dini və axirətində rəyasətə malik olan bir şəxs onların din və axirətlə bağlı bütün məsələlərini bilməlidir, bilik və elm baxımından başqalarından üst, təqva, paklıq və şücaət cəhətdən digərlərindən üca olmalıdır ki, İslam Cümhuriyyətini, insanların elmi, dini ehtiyaclarını da təmin edə bilsin. İnsan əqli heç cür qəbul etmir ki, Xüdavəndi-aləm elmi başqalarından az, şücaəti daha az, təqvası və paklığı digərlərindən az olan bir şəxs İslam ümmətinin rəhbərliyini nəsib etmiş olsun; o, əksinə dini məsələlərdə, İslam hökmlərində və Quran qanunlarında hamıdan üstün olmalıdır, təqvada, ədalətdə elə qüvvətli olmalıdır ki, başqalarının fikirlərinin təsiri altına düşməsin və hətta nəfsin gücü də ona qalib gəlməsin. Nəfsin gücünə məğlub və ona müti olan bir şəxs heç vaxt cəmiyyətdə fəsadın və zülmün qarşısını ala bilməz və insanlar da ona etimad etməz.

Xüdavəndi-təbarək və təala öz peyğəmbərinə göstəriş verir ki, haqqı bəyan edərkən başqalarının təsiri altına düşmə,

onların ardınca getmə. Əgər belə olsa, yer, asiman və onun əhli fasid olacaqdır.[1]

«Kəhf» surəsinin 28-ci ayəsində yenə Peyğəmbərə buyurmuşdur:

وَلَا تُطِعْ مَنْ أَغْفَلْنَا قَلْبَهُ عَنْ ذِكْرِنَا وَاتَّبَعَ هَوَاهُ وَكَانَ أَمْرُهُ فُرُطًا

***«Qəlbini Bizi (Quranı) xatırlamaqdan qafil etdiyimiz, nəfsinin istəklərinə uyan və (hər) işində ifrata varan bir kimsəyə itaət etmə!»***

Həqiqət bir imam, bir öndər də belə xislətlərə və sifətlərə malik olmalıdır ki, insanların dini və dünyası salamat qalsın. Məgər belə bir şəxsin və imamın seçilməsi məsələsini insanların ixtiyarına buraxmaq olarmı ki, onların səs verməsi ilə seçilsin? Ya bir neçə nəfərlik bir şuranın və ya qılıncın gücünə qeyd etdiyimiz mənada bir kimsənin imamətə çatması mümkün olan işdirmi?

Əsla belə deyil.

## İMAM PEYĞƏMBƏR DEYİL

İnsanların dini və dünyəvi işləri üzərində rəhbər, öndər və rəis mənasında işlənən imam peyğəmbər deyildir, Cəbrail ona nazil olmur və məsələləri vəhy yolu ilə öyrənmir.

Yalnız peyğəmbərdir ki, Cəbrail ona nazil olur, vəhy gətirir və Allah tərəfindən göndərilən dini buyuruqları ona elan edir. İmam peyğəmbərin sağlığında peyğəmbərə tabedir və hökmləri ondan alır. Peyğəmbərin vəfatından sonra da Cəbrail nazil olmur, Allah tərəfindən vəhy və xəbər çatdırılmır. Lakin Peyğəmbərin ona təlim etdiyi və insanların möhtac olduğu

---

[1] «Möminun» surəsi, ayə 71.

şeyləri peyğəmbər tərəfindən və onun canişinini kimi insanlara söyləyir, onlara rəhbərlik eləyir. Yəni onun haqqı vardır ki, bütün dini, ictimai, siyasi işlərdə ilahi dini göstərişlərə və öz dünyagörüşünə və baxışlarına uyğun olaraq insanları istədiyi səmtə aparsın və insanlar da ona tabe olmalı və itaət etməlidirlər.

Bəzi ilahi peyğəmbərlərin vəzifəsi idi ki, vəhy yolu ilə onlara çatan və ya sabiq peyğəmbərlərin ardınca ilahi hökmləri insanlara bəyan etsinlər. Lakin borcları deyildi ki, imam və rəhbər olsunlar və bütün ictimai, iqtisadi, siyasi sahələrə, müharibə və sülh məsələlərinə müdaxilə etsinlər. Peyğəmbərin bəzisi risalət məqamından, vəhy yolu ilə gələn ilahi hökmləri bəyan etməkdən və axirət yolunu göstərməkdən əlavə, imamlıq mənsəbinə də malik idi və ixtiyarı vardı ki, yol göstərməkdən başqa imam və rəhbər də olsun; yəni insanları (xalqı) müharibə meydanlarına aparsın, siyasi, ictimai, dünyəvi məsələlərə də müdaxilə etsin. Və bu ilahi mənsəbə çatmağın da öz şərtləri vardır. Bunlar bir şəxsdə cəm olmalıdır ki, o, imamət məqamına çata bilsin və belə olsa, bu yaxşıdır.

Bu məsələdə Qurani-Kərimi və Allah kəlamını hakim hesab edək ki, heç kəs: «Bu hədisdir ya tarixdir» - deyə bilməsin. Bu, Allahın kitabıdır ki, onda heç bir batil söz yoxdur.

Risalət və peyğəmbərlik məqamında olan, qoca vaxtında Allahın İsmail və İsaqı bəxş etdiyi, çoxlu imtahanlara və sınaqlara məruz qalan İbrahim Xəlilullaha bütün bunlardan sonra Xudavəndi-aləm buyurdu:

إِنِّي جَاعِلُكَ لِلنَّاسِ إِمَامًا ۖ قَالَ وَمِن ذُرِّيَّتِي ۖ قَالَ لَا يَنَالُ عَهْدِي الظَّالِمِينَ

***«Səni insanlara imam təyin edəcəyəm», -dedi. (İbrahim isə:) «Nəslimdən necə?» – deyə soruşdu. (Allah onun cavabında: ) «(Sənin nəslindən olan) zalımlar mənim əhdimə (imamlığıma) nail olmazlar», -buyurdu».***[1]

Bu mübarək ayədə aşağıdakı cəhətlərə diqqət yetirmək lazımdır:

Əvvələn, İbrahim peyğəmbər idi, Allahın dostu idi. Təbliğ etmək və ümmətə yol göstərmək məqamına malik idi. Xüdavənd onu böyük imtahanlara çəkib sınamışdı; atəş içindən keçməklə və ən ümdəsi isə, oğlu İsmaili qurban kəsməyə hazır olması ilə imtahan olunmuşdu.

Bu imamət mənsəbi nə idi ki, Xüdavənd ona vermişdi? Bu, nübüvvət və rəsalət məqamımdan başqa bir şey idi və o da rəhbər olmaq, ictimai və sair işlərdə xalqı öz dalınca aparmaqdan ibarətdir.

İbrahim Xəlilullah bu mənsəbi öz övladları üçün Allahdan istədi və Allah cavab verdi: «Zülm etmiş adamlara (imamət) catmaz».

Bu cavab isbat edir ki, imam olan kəs heç vaxt zülm və sitəm etməməlidir və bu, imamın məsum olmasının şərtidir.

İbrahim bu xaişi zalimlər üçün etmirdi, «İlahi imaməti mənin zalım övladlarımın nəsibi et!» - demək istəmirdi, imamət səlahiyyəti onlar üçün istəyirdi.

Bu məsələnin izahı belədir: bəzən bir şəxs bütün ömrü boyu zalım olur, bəzən ömrünün əvvəl變ərində zalım, axırında yaxşı olur; bəzən əvvəl yaxşı, axırda isə pis adam olur. Dördüncüsü budur ki, əvvəldə də yaxşı, axırda da yaxşıdır, heç vaxt zülm etməmişdir.

---

[1] «Bəqərə» surəsi, ayə 124.

Yəqindir ki, Həzrət İbrahim birinci üç dəstə üçün imamət istəmişdir, çünki heç mümkün deyil ki, bu böyük peyğəmbər bütün ömrü boyu zalım olan, ya əvvəl zalım, sonra həyatının sonunda yaxşı olan bir şəxs üçün Xüdavəndi-aləmdən imamət və rəhbərlik istəmiş olsun! Yalnız dördüncü dəstə imamət ləyaqətinə malikdir və İbrahim məhz bu dəstə üçün xaiş edirdi. Bütün ömrü boyu zülm etməyən şəxs də məsumdur və əsərin «Xilafət» fəslində də bu məsələyə bir qədər aydınlıq gətirilir.

## XİLAFƏT

Lüğətdə «xilafət» canişin mənasındadır. Xəlifə o kəsə deyilir ki, birindən sonra onun yerində oturur; bir sultan müsafirət edirsə, bir kəsi öz yerində qoyur. Bir əmir ölür, xalq başqa bir şəxsi onun yerinə oturdur. Bu xilafət müharibə ilə ələ gələ bilər, ya seçki, ya şura və ya başqa yollarla da ələ gələ bilər. Amma İslam və ilahi xilafət elə bir xilafətdir ki, bir şəxs İslam peyğəmbərinin yerinə əyləşir, onu icra etdikləri xəlifə yerinə yetirir. Əgər xalq hər hansı bir elmi məsələnin izahına ehtiyac duyursa, o cavab verir. Əgər peyğəmbər insanların vəlisidirsə, xəlifə də onlara vəli olur.

Allaha və onun elçisinə itaət etmək vacib olduğu kimi, xəlifəyə də qeyd-şərtsiz itaət etmək vacib olur və ona müxalif olmaq da Allah və peyğəmbərə müxalif olmaq deməkdir.

Quranın «Nisa» surəsinin 59-cu ayəsində buyururlar:

أَطِيعُوا اللَّهَ وَأَطِيعُوا الرَّسُولَ وَأُولِي الْأَمْرِ مِنْكُمْ

***«Allaha və onun elçisinə və sizin özünüzdən olan vəliyül-əmrə itaət edin».*** Allaha qeyd-şərtsiz itaət etmək hamı üçün vacibdir, çünki Peyğəmbərin (s) buyurduğu eynən

Allahın kəlamının özüdür, ona itaət etmək hamıya vacibdir; çünki hər nə deyirsə vəhydir, havadan götürmür.

Bu mübarək ayədə vəli-əmrə də itaət Allaha və peyğəmbərə qeyd-şərtsiz itaət kimi ümmətə və müsəlmana vacib sayılmışdır.

Quranın və Allahın hökmünü hər zaman, hər yerdə hər kəs yerinə yetirməlidir: peyğəmbər hansı tayfadan və millətdən olmasından asılı olmayaraq vəli-əmrə də itaət bütün müsəlmanlar üçün vacibdir.

Bu ümumi, qeyd-şərtsiz hökmdən məlum olur ki, əgər vəli-əmr Şərqdə olsa, Qərbdə yaşayan hər müsəlmanın ona itaət etməsi zəruridir. Bu itaətin onun məmləkətinə və millətinə dəxli yoxdur, prezidentlik, padşahlıq kimi deyildir ki, yalnız məmləkətlərinin sakinləri öz əsrində və dövründə onların göstərişlərinə tabe olsunlar. Əksinə, Allaha, onun Rəsuluna və vəli-əmrinə müsəlman şəxs üçün hər zaman, hər yerdə, hər şeydə, hər məsələdə - istər dini, istər dünyəvi olsun - itaət lazımdır. Və bu həmin imamətdir ki, din və dünya işlərində tam ixtiyar onun əlindədir. Bunu həm şiələr, həm də sünnilər söyləmişlər və bu, mütləq xilafətdir ki, hər cəhətdən peyğəmbərdən sonra onun xəlifəsinə yetişir, lakin o, peyğəmbər yox, xəlifəsidir.

## İMAMƏT, XİLAFƏT VƏ VİLAYƏT KİMİN ƏLİNDƏDİR?

Görəsən İslamda mövcud olan mənada xilafəti, imaməti və vilayəti siyasi məclis nümayəndələri kimi xalq seçməlidir, ya yox?

Dünya və axirət işlərinin sahibi və rəisi olan imamı, xəlifəni və vəli-əmri peyğəmbərin özü kimi Allah təyin

etməlidir. Nəhayət o, peyğəmbərin canişini və ümmətin imamıdır; nə peyğəmbərdir, nə rəsuldur, nə müstəqil kitabı var, nə Cəbrail Allah səfiri kimi ona nazil olur. Yalnız elmi və fikri xətti peyğəmbərdən öyrəndiyi xəttdir, yoldur. Sünni qardaşlar deyirlər ki, xəlifəni və vəli-əmri xalq seçir; kimi ki, Mədinə camaatı, əshab xilafətə və vilayətə bəyənib qəbul edirsə, o, peyğəmbərin xəlifəsi və vəli-əmridir. Onu peyğəmbərin təyin etməsi lazım deyildir. Burada ən mühüm olan şey xalqın rəyidir. Əbu Bəkrin bairəsində belə də etdilər.

Peyğəmbərin vəfatından sonra mühacirlər dedilər ki, əmir bizdən olmalıdır. Əbu Bəkir də mühacirlərdən idi. Ənsarlar dedilər ki, xəlifə bizdən olmalıdır, biz peyğəmbərə kömək etdik, Mədinədə ona yer verdik, yanında döyüşdük.

Səd ibn Übadə ənsarlardan idi və onlar onun xəlifə olmasını istəyirdilər.

Ömər narat oldu və dedi: «Öldürün onu!»

Xülasə, çox ixtilaflardan sonra Əbu Bəkrə beyət etdilər. Bununla iş tamam oldu.

Əli ibn Əbu Talib (ə) isə peyğəmbərin qüsl, kəfəni və dəfni ilə məşğul idi - buna görə bu iş onsuz və Bəni-Haşimilərin çoxunun iştirakı olmadan həll edildi.

Əbu Bəkri intixab edərkən heç kəs demədi ki, onu Peyğəmbər xəlifə təyin etmişdir. Onu bu mənsəbə xalq seçdi.

Əbu Bəkr dünyadan gedərkən vəsiyyət etdi ki, ondan sonra Ömər ibn Xəttab xəlifə olsun. O da bu qayda ilə xəlifə oldu. Ömər dünyadan gedəndə xilafəti 6 nəfərlik bir şuraya tapşırdı və göstəriş verdi ki, o altı nəfərdən birini xilafətə seçsinlər. Əgər bir nəfər üstündə razılıq əldə edilməsə, Əbdürrəhman ibn Ouf olan tərəf xəlifə olsun.

Nəzərdə tutuldu ki, Əbdürrəhman xəlifə olsun. Əgər heç bir razılıq olmasa iki nəfərə göstəriş verdi ki, evin qapısında

dursunlar və hamını öldürsünlər. Nəticədə, Osman uddu və Əli ibn Əbu Talibin (ə) bəzi şərtləri etməməsi üzündən o, xəlifə ola bilmədi. Osman təqribən on il xilafət sürdü. Onun dövründə qədim düşmənlərdən olan Ümeyya övladları müsəlmanların üzərində üstünlük əldə etdilər, İslam dini göstərişləri xilafına olan bir çox işlər görüldü və nəhayət, mühacirlər, ənsar, Kufə və Misir müsəlmanları Mədinədə toplaşdılar. Aişə də adamları təhrik etdi və Osmanı öldürdülər, müsəlmanların qəbristanında dəfn olunmağına da icazə vermədilər. Aişə söhbət zamanı deyirdi: «Bu axmağı öldürün ki, Peyğəmbərin dinini aradan apardı». Peyğəmbərin köynəyini başının üstünə qaldırır və deyirdi: «Peyğəmbərin köynəyi hələ çürüməmiş onun dinini məhv etdilər».

Osmanı öldürəndən sonra Əli ibn Əbu Talib (ə) evinə hücum etdilər, qışqırdılar:

«Çölə çıx, gəl, sənə beyət edək».

Əli (ə) buyurdu:

«Bu, əgər beyətdirsə, Peyğəmbərin sağlığında Qədiri-Xumda beyət etmisiniz?»

Ancaq camaat sakitləşmədi, Əlinin evinin qapısını sındırıldı.

Nəhayət, Əli ibn Əbu Talib (ə) məscidə gəldi və camaat ona beyət etdi. Bu seçki ilə Əli ibn Əbu Talib (ə) dördüncü xəlifə oldu. Bunu sünnülər də qəbul etdilər.

Amma bu seçkilər, şura ya vəsiyyət üsulu ilə olan xilafət siyasi-ictimai bir xilafətdir ki, onu Mədinə camaatı yaratdı və bu işdə bütün müsəlmanlar və bütün şəhərlər iştirak etmədi.

Belə bir xilafət Müaviyənin də əlinə keçdi, hətta oğlu Yezid də bu xilafətə çatdı.

Sünni qardaşlar da Əbu Bəkrə və Ömərə xəlifə deyirlər, ancaq İmam Əbu Bəkr, İmam Ömər və İmam Osman demirlər.

Və bir kimsə də deməmişdir ki, onların xəlifəliyini peyğəmbər vəsiyyət etmişdir. Əgər vəsiyyət etmiş olsaydı, seçki keçirilməsi lazım deyildir və ya şuraya qoymaları gərək deyildi.

Lakin Əli ibn Əbu Talib (ə)-in imaməti, xilafəti və vəli-əmrliyi barədəki məsələ ilahi bir məsələdir ki, Allah və Peyğəmbər (s) onu Əli ibn Əbu Talibə (ə) vermişdir və bunu Peyğəmbər (s) öz sağlığında müsəlmanlara çatdırmışdır:

إِنَّمَا أَنْتَ مُنْذِرٌ ۖ وَلِكُلِّ قَوْمٍ هَادٍ

***«Sən ancaq (insanları Allahın əzabı ilə) qorxudansan. Hər tayfanın (doğru yol göstərən) bir rəhbəri (peyğəmbəri) vardır!»***[1] Bu, imamət və vəli-əmr kimi təsir olunmuşdur.

## İSLAMDA ƏN MÜHÜM MƏSƏLƏ

Hər millət və xalq üçün ən böyük məsələ rəhbərlik məsələsidir. Hərçənd texnika, sənaye, şeir, ədəbiyyat, əsgər cəmiyyətin həyatı üçün zəruri və lazımlıdır, ancaq cəmiyyəti quruculuq, təkamül, fərd və ictimai rifah yolları ilə irəli aparmaq, onu bu işlərə sövq etmək üçün rəhbərin, rəhbərliyin və idarə etməyin rolu hər şeydən mühümdür.

Müasir dünyanın hər şeyi var, lakin adil və aqil rəhbərləri azdır. Buna görə millətlərin rəhbərləri tez-tez dəyişilirlər, çevrilişlər baş verir, tələsik keçirilən seçkilərin sayı çoxalır. Sözün qısası budur ki, bəşər dünyasının hər şeyi var, lakin elə düzgün və saleh rəhbərliyi yoxdur ki, bütün dünya xalqlarını öz ailəsi kimi hesab etsin, hamının xeyrini istəsin, ürəyi hamı üçün yansın, özününkü ilə başqası arasında fərq qoymasın,

[1] «Rəd» surəsi, ayə 7.

hətta öz məmləkətinin qeyri millətlərdən olan nümayəndələrinin də haqqını öz millətinin haqqını qoruduğu kimi qorusun, bütün insanların haqqına qail olsun, bəşər hüququnu əməli surətdə ehya etsin, qorxmadan, çəkinmədən məzlumun haqqını zalımdan alsın.

Əli ibn Əbu Talib (ə) Misir valisi Malik Əştərə göndərdiyi rəsmi məktubunda camaatın hüquqları barədə yazırdı: «Bil ki, xalq ya sənin din qardaşlarındır, ya sənin kimi Allah tərəfindən xəlq edilmişlər ki, onlar da səhv edə bilərlər. Onlarla Allahın səninlə necə rəftar etmək istədiyini sevdiyi kimi rəftar et». Belə rəhbərlər İslamın izzəti və bəşəriyyətin üzünü ağ edəndir. Beləsini yalnız böyük Allah öz peyğəmbəri vasitəsilə təqdim edir; bu, seçki, müharibə və şura vasitəsilə mümkün olan iş deyil.

## QƏDİRİ-XUM VƏ ƏLİ İBN ƏBU TALİBİN (ə) XİLAFƏTİ

Əziz oxucum, müsəlman qardaşım. Bir anlığa məzhəbi və milli təəccübü bir kənara qoy! Kitabın bu bölməsinin həqiqətlərini bilmək və öyrənmək məqsədilə onu diqqətlə mütaliə et, əqlinin və imanın qəbul etdiklərini qəbul et.

Təbuk döyüşü Peyğəmbəri-Əkrəmin (s) Rum padşahı Herakl ilə axırıncı döyüşüdür. Bu qüvvətli düşmənlə müharibəyə hazırlıq bir neçə ay çəkdi. Bu döyüş başlamasa da, bu, Peyğəmbər üçün öz gücünü nümayiş etdirmək və döyüş manevri idi ki, iki ay davam etdi.

Peyğəmbərin düşmənləri, xüsusən yəhudilər Mədinədə çevriliş etmək və Peyğəmbəri (s) qayıtdığı zaman öldürmək planı çəkmişdilər. Peyğəmbər (s) Cəbrail vasitəsilə bu plandan xəbər tutdu, bütün döyüşlərdə Peyğəmbərlə iştirak etmiş Əli

ibn Əbu Talibi (ə) Mədinədə qoydu. Münafiqlər başa düşdülər ki, Əli (ə) Mədinədə qaldığına görə bu çevrilişi yerinə yetirə biləcəklər, ona görə camaat içində bir yalan yaydılar ki, güya Peyğəmbərlə Əli (ə) arasında bir narazılıq yaranıb. Bu səbəbdən də Əli (ə) bu dəfə müharibədə iştirak etməmişdir. Əli ibn Əbu Talib (ə) bu şayiəni eşidən zaman təcili surətdə Mədinə kənarında özünü Peyğəmbərə çatdırdı, məsələni ona danışdı. Peyğəmbər (s) bu cümləni Əli (ə) barəsində buyurdu: «Məgər sən istəmirsən ki, mənim əhlim və malım içində xəlifəm olasan? Axı Harun Musa üçün nədirsə, sən də mənim üçün eləsən! Ancaq sən peyğəmbər deyilsən». Həzrət Musa o zaman Tur dağına getdi və qardaşı Haruna dedi: «Sən tayfamın içində mənim xəlifəm ol, işləri qaydasına sal, fəsad törədənlərin yolunu bağla!»

İslamın böyük peyğəmbəri bütün mühacir müsəlmanlar, ənsar, əsgərlər və övladları arasında yalnız Əli ibn Əbu Talibi (ə) çevriliş xətərinin qarşısını alınması üçün münasib və güvəndiyi bir şəxs kimi gördü,[1] ancaq o düşmən təhlükəsinin qarşısını ala bilərdi. Bu hədis şiə və sünni kitablarında çox nəql olunmuşdur və onu hər yerdə tapa bilərsiniz.

İslamın böyük peyğəmbəri Əli ibn Əbu Talibi (ə) Qədiri-Xumda xilafətə və imamətə nəsib etməzdən əvvəl bir çox məqamlara və münasib bildiyi yerlərdə Əlinin imamlığını və xəlifəliyini eşitdirmişdi, məsələn, buyurdu: «Əli məndən, mən Əlidənəm və o, məndən sonra möminlərin vəlisidir». Bu hədis «Tac» kitabının müəllifi (Misir çapı) Müslim və Buxarinin «Səhih»ində nəql etmiş və yazmışdır. «Bu, Əli ibn Əbu Talib (ə) üçün ən böyük fəzilətdir».

[1] «Şura» surəsi, ayə 7.

## MÜŞRİKLƏRNƏN MÜHARİBƏNİN ELAN EDİLMƏSİ

İslam peyğəmbəri Məkkənin və Məkkədən kənardakı müşriklərin bəziləri ilə müahidə bağlamışdır ki, onların üzərinə hücum etməyəcək. Lakin «Bəraət» surəsi və «Tövbə» surəsi nazil oldu və Peyğəmbərə müşriklərə qarşı cihad etmək göstərişini gətirdi. Əlbəttə, bu müharibə dörd ayə qədər möhlət verildi ki, müahidənin müddəti qurtarsın.

Peyğəmbər (s) «Bəraət» surəsini Əbu Bəkrə verdi ki, Məkkəyə aparsın və Qurban bayramı günü camaata oxusun və müşrikləri ondan xəbərdar eləsin.

Əbu Bəkr hərəkət edəndən sonra Cəbrail Peyğəmbərə (s) nazil oldu və dedi: Bu hökmü sən, ya sənin öz adamın elan edilməlidir. Peyğəmbər Əlini çağırdı, Əbu Bəkr dalınca göndərdi və buyurdu: «Bəraət» surəsini ondan al, apar, Məkkə kafirlərə oxu!

Əli, Əbu Bəkrin ardınca getdi, Rəhada gördü, məktubu və surəni ondan aldı. Əbu Bəkir yarı yoldan qayıtdı, narahat oldu və dedi:

«Ya Rəsulullah, məni bir məmuriyyətə layiq bildin ki, çoxları bunu arzu etdi. Amma gedəndən sonra məni geri qaytardın».

Peyğəmbər (s) buyurdu: «Cəbrail gəldi, Allah tərəfindən peyğam gətirdi ki, ya sən özün bu xəbəri çatdırmalısan, ya da səndən olan bir kişi. Əli məndəndir və ondan başqa bir kimsə xəbərimi catdıra bilməz».

Müfəssirlərin əksəriyyəti bu əhvalatı «Bəraət» surəsinin təfsirində nəql etmişlər...[1]

Bu hadisə hicrətin 9-cu ilində baş verdi. Əli də peyğəmbərin məktubunu və «Bəraət» surəsinin camaat üçün oxudu.

Peyğəmbərin ömrünün sonunda baş vermiş bu hadisədən nə başa düşürük? Məgər burada əsas məqsəd Əli ibn Əbu Talib (ə)-in ucalığı, onun imamlığı, xəlifəliyi və onun canişinliyi üçün zəmin yaratmaq deyildimi? Bu o demək deyilmi ki, məhz Əli (ə), Peyğəmbər (s) tərəfindən hər xəbəri çatdırmalıdır. Ondan başqa heç kəs yox[2]. Bu, Əlinin üstünlüyünü göstərmək deyilmi? Əqlin və imamın neçə hökm edirsə, onu da qəbul et!

## PEYĞƏMBƏRİN SON HƏCCİ VƏ QƏDİRİ-XUM ƏHVALATI

Peyğəmbəri-Əkrəmin (s) rəsalət zamanı keçirdi. Hicrətin 10-cu ili - Həzrət Mühəmmədin (s) ömrünün son ili çatdı.

Hər insan ömrünün son günlərində mühüm işlərini və məsələlərini həll edir. İslam peyğəmbəri vəhy vasitəsilə bilirdi ki, axirət səfərinə getməli, digər peyğəmbər kimi dünyaya vida etməlidir.

Qurani-Kərimdə bir neçə ayə bu məsələni bəyan eləmişdi:

إِنَّكَ مَيِّتٌ وَإِنَّهُمْ مَيِّتُونَ

[1] «Təfsiri Dorre mənsur». «Bəraət» surəsi.
[2] İmam Əhməd ibn Hənbəl «Müsnəd»

***«Şübhəsiz ki, sən də öləcəksən, onlar da öləcəklər!»***[1] Başqa bir ayədə buyurmuşdur:

وَمَا جَعَلْنَا لِبَشَرٍ مِنْ قَبْلِكَ الْخُلْدَ ۖ أَفَإِنْ مِتَّ فَهُمُ الْخَالِدُونَ

***«Səndən əvvəl də (dünyada) heç bir bəşərə əbədiyyət (ölməzlik) vermədik. Belə olduğu təqdirdə, sən ölsən, onlar dirimi qalacaqlar?!»***[2]

Peyğəmbəri-Əkrəm (s) 22 il müddətində bütün hökmləri namaz, oruc, həcc, zəkat, cihad, halal, haram və s. xalqa bəyan etmiş, rəsalət ehlamını bildirmiş, bəzi vəsiyyətlərdən başqa heç nə qalmamışdı.

Peyğəmbər (s) hicrətin 10-cu ilində müsəlmanlara göstəriş verdi ki, həccə gəlsinlər və həcc əməllərini İslam peyğəmbərinin özündən öyrənsinlər. Mədinəlilər və qeyri-mədinəlilər həccə getməyə hazırlaşdılar və həccdə çoxlu adam iştirak etdi.

Əli ibn Əbu Talib (ə) bu zaman Peyğəmbər (s) tərəfindən Yəmənə iş dalınca göndərilmişdir və Yəmən camaatını islama dəvət edirdi. Yarım gün ərzində hamı İslam dinini qəbul etdi. Əlidən qabaq Xalid ibn Valid Yəmənə getmiş 6 ay orda qalmışdı. Lakin heç kəsi İslam dinini qəbul etməmişdir.

Peyğəmbər (s) məktub yazıb, Əliyə (ə) göstəriş verdi ki, həccdə iştirak etsin. Əli (ə) Yəməndən, İslam peyğəmbəri Mədinədən Məkkəyə gəldilər. Əli (ə) Məkləyi-müəzzəmədə Peyğəmbərlə o zaman birləşdi ki, Allah Rəsulu artıq ömrə əməlini yerinə yetirmişdi.

---

[1] «Zumər» surəsi, ayə 30.
[2] «Ənbiya» surəsi, ayə 34.

Peyğəmbəri-Əkrəm (s) özü ilə Mədinədən 63 və Əli ibn Əbu Talib (ə) Yəməndən 35 qurbanlıq gətirmişdir ki, cəmi 100 qurbanlıq edirdi.

Peyğəmbər (s) göstəriş verdi, onları bayram günü kəsdilər. Camaat hər yerdə Peyğəmbərin hüzurunda idi və o Həzrətin xütbələrini Ərafatda, Minada dinləyirdi. Zəruri işləri görəndən və həcc tamam olduqdan sonra Allah evinə vida etdilər, vida təvafını yerinə yetirdilər və öz, məmləkətlərinə qayıtdılar.

## BÖYÜK BİR BİYABANDA BÖYÜK BİR MƏRASİM

Hacılar İslam peyğəmbəri və o Həzrətin əshabı ilə birlikdə Məkkədən hərəkət edib Rabuğa çatdılar. Rabuğ hal-hazırda Cəddə və Mədinə arasında bir qəhvəxanadır. Onun yaxınlığında bir yer var ki, keçmişdə ümumi yol olmuşdur, indi asfalt yoldan bir qədər aralıdır, adı Coffədir və Qədiri-Xum adı ilə məşhurdur. Çökək olduğu üçün ora su yığışırdı və ondan müsafirlər istifadə edirdilər. Peyğəmbər (s) Qədiri-Xumda ayaq saxladı, mənzil saldı və göstəriş verdi ki, qabaqda keçib getmiş hacılar geri dönsünlər. Arxada qalanlar da gəlib yetişdilər. Bəziləri 120 min nəfər, bəzilərinin də bundan da çox olduğunu qeyd etdikləri bir dəstə əmələ gəldi. İsti hava, dəvələrin və atların səs-sədası, ərəblərin ucadan etdiyi söhbətlər maraqlı bir mənzərə yaratmışdı.

Peyğəmbəri-Əkrəm (s) üçün bir gölgəlik və dəvələrin cəhazından da bir uca yer düzəltdilər. Adamlar başa düşdülər ki, Peyğəmbəri-Əkrəm (s) bu məclisdə onlara nə isə bir mətləb deməyi qərara alıbdır. Bu da mühümdü ki, bu biyabanda, bu isti havada qocanı-cavsanı, qadını-kişini bir yerə toplaşmış, saxlanmışdır; deməli, aydındır ki, Allah tərəfindən nə isə bir fərman gəlib ki, hökmən elan olunmalıdır.

## XUDAVƏNDİ-ALƏM ƏLİ İBN ƏBU TALİB (ə) BARƏSİNDƏ BUYRUĞU

Peyğəmbər (s) Qədiri-Xuma catmazdan qabaq Cəbrail nazil oldu və bu hökmü gətirdi: «Sənə nazil olmuş bu peyğamı elan et». Peyğəmbəri-Əkrəm (s) bu məsələdən vəhşətə gəlib qorxuya düşdü. Cəbrail ikinci dəfə gəldi: «Əgər bu işi görülməsə, sən öz rəsalətin yerinə yetirməmiş olursan. Xudavənd səni insanların şərindən qoruyar».[1]

Bu zaman Allah Rəsulu (s) Əli (ə) barəsindəki risaləti elan etmək qərarına gəldi. İndi Coffə adlanan İran, Əraq, Suriya hacılarının ehram bağladıqları bir biyabanda hacıların hüzurunda Əli ibn Əbu Talib (ə) ilahi xilafətin, imamətin nəsib olması mərasimi başlandı.

## QƏDİRİ-XUMDA PEYĞƏMBƏRİN XÜTBƏSİ

İslam peyğəmbəri Qədiri-Xumda Əli ibn Əbu Talib (ə) xilafəti nəsib etdiyi gün elə bir xütbə oxudu ki, o vaxta qədər Peyğəmbərdən adamlar eləsini eşitməmişdirlər. Tarix kitabları, hədislər şiə və sünnü təfsirləri bu xütbəni nəql etmişlər. Bəziləri xütbəni bütöv şəkildə, bəziləri isə onun bir hissəsini vermişlər.

---

1 يَا أَيُّهَا الرَّسُولُ بَلِّغْ مَا أُنْزِلَ إِلَيْكَ مِنْ رَبِّكَ ۖ وَإِنْ لَمْ تَفْعَلْ فَمَا بَلَّغْتَ رِسَالَتَهُ ۚ وَاللَّهُ يَعْصِمُكَ مِنَ النَّاسِ ۗ إِنَّ اللَّهَ لَا يَهْدِي الْقَوْمَ الْكَافِرِينَ

***«Ya Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil ediləni (Quranı) təbliğ et. Əgər (bunu) etməsən, (Allahın) risalətini (elşilik, peyğəmbərlik vəzifəni) yerinə yetirmiş olmazsan. Allah səni insanlardan qoruyacaq. Həqiqətən, Allah kafir camaatı düz yola yönəltməz!»*** «Maidə» surəsi, ayə 67.

Şairlər, ədiblər Qədir günündən indiyə qədər bu xütbə mərasimini özlərinin ərəbcə, farsca, türkcə və azərbaycanca yazdıqları şeirlərinin təsvir etmişlər.

Peyğəmbər (s) zamanından indiyə qədər tarixçilər və ravilər bu hadisəni yazmış, söyləmişlər. Bu barədə yazılmış kitablar hər şeydən əvvəl islami kitablardır və əsil həqiqəti axtaranların yalnız Mir Həmid Hüseyn Hindinin «Əbəqat» adlı əsərini və Əminin «Əl-Qədir» kitabının oxuması kifayətdir.

İslam peyğəmbəri Xudavəndi-aləmə həmd-səna etdikdən sonra buyurdu:

«Ey camaat! Xudavənd mənə xəbər göndərmişdir: mənim axirət aləminə çağırılmağıma az qalmışdır. Mən məsulam və siz də məsulsunuz. Nə istəyirsiniz, deyin».

Hamı dedi:

«Ya Rəsulullah. Sən risaləti təbliğ etmisən, bizə nəsihət vermisən. Allah sənə xeyir mükafatı versin».

Sonra buyurdu:

«Baxın. İki çox qiymətli əmanətlə necə rəftar edəcəksiniz».

Biri soruşdu:

«İki əmanət nədir?»

Buyurdu:

«Biri Qurandır - Allahın kitabı; ikincisi, mənim nəslim və Əhli-beytimdir. Bu iki əmanət Kövsər hovuzunun yanında mənə qovuşana qədər bir-birindən ayrılmazdır. Quranı əlinizdə tutun tutun və ona əməl edin ki, zəlalətə düşüb yolunuzu azmayasınız və mənim Əhli-beytimdən qabağa düşməyin və onların yanında təqsirkar olmayın ki, həlak olarsınız».

Sonra Peyğəmbər (s) camaata xitabən belə buyurdu: «Məgər mən möminlər üçün onların özlərindən daha səlahiyyətlisi və mövlası deyiləm?»

Hamı dedi:

«Bəli, Rəsulullah, sən bütün möminlərin vəlisisən».

O zaman İslam peyğəmbəri Əlinin (ə) əlindən tutdu, onu, Əlinin qoltuğunun altı görünə biləcək qədər yuxarı qaldırdı və buyurdu:

«Mən kimin mövlası və vəlisiyəmsə, Əli də onun mövlasıdır. İlahi, Əlini sevən hər kəsi sev, Əliyə yardımçı olan hər kəsə yardımçı ol, Əlini xar edən hər kəsi zəlil və xar et!»

Xütbə tamam oldu, camaat yaxın gəlib Əlini təbrik etdi. İlk gələnlər Əbu Bəkr və Ömər idi. Ömər dedi:

«Bəh, bəh. Ya Əli ibn Əbu Talib (ə), sən bütün mömin kişilərin və mömin qadınların mövlası oldun». Səni təbrik edirəm.

Bu zaman «Maidə» surəsinin 3-cü ayəsi nazil oldu:

الْيَوْمَ أَكْمَلْتُ لَكُمْ دِينَكُمْ وَأَتْمَمْتُ عَلَيْكُمْ نِعْمَتِي وَرَضِيتُ لَكُمُ الإِسْلاَمَ دِينًا

***«Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və sizin üçün din olaraq islamı bəyənib seçdim».***

Peyğəmbər (s) təkbir dedi, İslam dininin kamilləşməsinə şükr elədi.

Peyğəmbərin şairlərindən Həssan ibn Sabit ayağa qalxdı və bu barədə bir qəsidə söylədi!

Peyğəmbər (s) ona dua elədi. Onun şeirləri ərəb divanlarında mövcuddur.

Qədiri-Xum və Əli ibn Əbu Talib (ə)-in xilafətinin qısa və yığcam dastanı belədir və əshabdan yüz on nəfər kişi və qadın bunu nəql etmişdir. Bəlkə onlar özləri də o zaman Qədiri-Xumda olmuşlar. Tabeinlər, yəni Peyğəmbəri (s) yox, onun səhabələrini görənlərdən 84 nəfər də onu zikr etmiş və bu, təfsirlərdən, tarix kitablarında və alimlərin kitablarında

mövcuddur: Nəsainin «Xəsais» və İmam Əhməd ibn Hənbəlin «Müsnəd» kitabında zikr olunmuşdur.

Alimlərin və tədqiqatçıların bir çoxu bu məsələ barədə ayrıca kitablar yazmışlar ki, onlar bir neçə cild edər.

Lakin təəsüf ki, burda Azərbaycanda xalqın əksəri ərəb əlifbasını bilmir və bu əlifbada olan kitabları oxumaqdan məhrumdur. Ərəb əlifbasının, latın, kiril, ingilis əlifbasına dəyişdirilməsinin zərərlərindən biri də budur ki, İslam mənbələrini xalqdan pünhan saxladılar və onları asanlıqla əldə etmək mümkün deyildir. Amma şükr olsun Allaha ki, İslam alimləri bu elmi xəzinələrdən xəbərdardırlar. Bu kitabın müəllifinin də Qədiri-Xum haqqında şeirləri vardır ki, onlardan biri belədir:

**Qədiri-Xum tutdu Əli əlindən,**
**Açıqladı həqiqəti dilindən:**
**«Mən küntü mövlahu Əli mövlahu**
**Allahummə vali limən valahu.**
**Onun dostu Məhəmmədin dostudur.**
**Mənim dostum Allahımın dostudur.**
**Ona düşmən bilən, mənə düşməndir,**
**Mənə düşmən Allahıma düşməndir.**
**Əli-beytim əmanətdir sizlərə**
**Quran kimi hidayətdir sizlərə».**

Burada müsəlmanlar üzərində ilahi xilafət və vəli-əmr mövzusunu tamamlayır və Həzrət Əli ibn Əbu Talibin (ə) və onun övladlarının imaməti bəhsinə başlayıram: gərək şiələrin inam bəslədiyi on iki imam barəsində Peyğəmbəri-Əkrəm (s) bir şey buyurub ya yox?!

Sünnü qardaşlar əvvəl Qədiri-Xum məsələsini əslən qəbul etmirdilər və deyirdilər: bunu şiələr düzəldiblər, çünki kitablar və kitabxanalar müsəlmanların əlində yox idi, çap olunmamışdı ki, Qədiri-Xum əhvalatı təfsilatı ilə oxuya bilsinlər. Lakin şiə və sünnü əhlindən olan böyük alimlər çalışdılar, Qədiri-Xum və Əli ibn Əbu Talibin (ə) xilafəti ilə bağlı hədisləri topladılar, kitab şəklində çap elədilər və sübut etdilər ki, İslam tarixində Qədiri-Xum hadisəsi və Peyğəmbəri-Əkrəmin (s) Əli ibn Əbu Talib (ə) haqqında buyurduqları elə həqiqətdir ki, inkar etmək mümkün deyil! Buna görə çarəsiz qalıb onu qəbul etdilər.

Ancaq bəzi qərəzkar şəxsiyyətlər və zamanın ədalətsiz siyasətlərini təqib edənlər başqa bir şübhəni ortaya atdılar və dedilər ki, Qədiri-Xum hadisəsi baş vermişdir, ancaq Peyğəmbərin (s) «Mən kimin mövlasıyamsa, Əli onun mövlasıdır» kəlamı Həzrət Əlinin (ə) xilafəti, vilayəti və daha layiqli olması mənasını ifadə etmir.

Yenə böyük alimlər zəhmət çəkdilər, aydın şəkildə sübut etdilər ki, «mövlanın mənası hər işdə cəmiyyət və hakimiyyət» mənasındadır, «dost», «köməkçi» mənasında deyildir. «Əlini sevin» və ya «Əli sizin köməyinizə yetəndir» sözlərini bəyan etmək üçün çöldə mərasim lazım deyildi, xalqı isti və yandırıcı, yaxıcı havada bir yerə toplamaq lazım deyildi, təbrik etmək, əlindən tutmaq və beyət etmək lazım deyildi.

Qədiri-Xum hadisəsini və burda əsas məqsədin Əlinin xilafəti, dinin kamilləşməsi, Həzrət Əli ibn Əbu Talib (ə)-in imamətinin və rəhbərliyinin elan etməkdən ibarət olduğunu sübut edəndən sonra yenə qərəzkar və təhqiqatdan uzaq adamlar başqa bir mətləb irəli sürdülər və o da budur ki, bu işi səhabələr gördülər, Həzrət Əlinin xəlifəliyinə razı olmadılar, o zaman artıq qocalmış olan Əbu Bəkiri intixab etdilər. Bundan

əlavə, Əli özü də haqqını almaq üçün qiyam etmədi. Əksər sünnülərin arasında belə bir fikir var ki, Əli özü xəlifə olmaq istəmədi və peyğəmbərin səhabələri də belə bir iş tutdular və icma bu qərarı qəbul etdi. Məgər bu böyük məsələnin cavabı budurmu?

Əvvələn hansı səhabə, hansı icma? Məgər Əlinin özü, Səlman, Əbuzər, Peyğəmbərin (s) əmisi Abbas kimi peyğəmbərin böyük səhabələrinin hamısı və ənsarın çoxu - o cümlədən məclisdə fəaliyyət göstərən, ömrünün axırına qədər də nə Əbu Bəkrə, nə də Ömərə beyət edən, nəhayət, çarəsiz qalıb Ömərin xilafətliyi vaxtı Şama gedən, orda sirli şəkildə öldürülən və günahı bicarə cinlərin boynuna atılan Səd ibn Ubadə Əbu Bəkrin intixab edilməsində iştirak edirdi və bunlar səhabələrdən deyildilərmi? Onlar burada iştirak etdilərmi? İkinci cavab, görəsən o zaman də böyük şəhər olmayan Mədinədə bir neçə səhabənin nə haqqı var idi ki, Peyğəmbəri-Əkrəmin (s) mərasim keçirməklə və xüsusi təkidlə elan etdiyi, Allahın isə dinin kamilləşməsi və nemətlərin tamamlanması saydığı mühüm islami və ictimai bir məsələni dəyişsin, Mədinədən kənarda - Həbəşdə, Yəməndə, Bəhreyndə və Mədinə ətrafında yaşayan, sayı o qədər də çox olmayan müsəlmanlar iştirak etmədiyi halda əshab müsəlmanların vəli-əmr (ağaların dediyi kimi) məsələni həll etsin? Məgər onlar müsəlmanların xeyrini Peyğəmbərdən daha yaxşı bilirdilər?

Əli (ə)-ın özünün işarə etdiyi üçüncü cavab budur ki, Əli (ə) tənha qaldı, qiyam etmədi; əgər daxili bir müharibə başlasa, müsəlmanlar bir-biri ilə vuruşsa, fürsət gözləyən və marığta yatan İslam düşmənləri birləşər, İslamın əsaslarını məhv edərdilər və bu zaman İslamda qalmazdı ki, bir nəfər də ona xiləfə olsun. Bunun qorxusundan Əli (ə) canını dişinə tutdu, susdu. O, özü bu barədə belə buyurmuşdur:

«Xilafət köynəyini zorla mənim əynimdən çıxartdılar və başqalarına geyindirdilər. Halbuki, mənim mövqeyim dəyirman oxu kimi idi, mənim əzəmətim uca dağların zirvəsi kimi idi ki, elm çeşmələri ondan axırdı. Düşündüm: əliboş halda qiyam edim, ya səbr edim? Gözlərimə qum dolmuş, boğazımda sümük qalmış adam kimi səbri qəbul etdim. Bu vəziyyətdə səbr etdim».[1]

## QƏDİRİ-XUM BARƏDƏ SÜNNİ QARDAŞLARDAN İKİ MÜHÜM MƏSƏLƏ

### Birinci məsələ

Bürhanəddin Hələbi Şafei İslam peyğəmbərinin həyat tarixini ölən günə qədər yazmış böyük tarixçilərdəndir. O, bu məsələni öz kitabının üçüncü cildində qələmə almışdır. Mən də onun həmin kitabdan nəql edirəm ki, sünni qardaşlar qəbul edirlər. Hələbi Şafei yazır: «Qədiri-Xum hadisəsindən sonra Peyğəmbərin hüzuruna bir ərəb gəldi, uca səslə söylədi:

«Ya Məhəmməd, bizə dedin ki «la ilahə illallah» deyək, dedik. Sonra sənin rəsalətinə şəhadət verdik. Dedin namaz qılın, qıldıq, zəkat verin, verdik, oruc tutun, tutduq. İndi də Əlini bizim boynumuza mindirdin və onu bizə hakim etdin. De görək, bu işi sən özün etdin, ya Allah tərəfindən oldu?»

Peyğəmbər buyurdu: «Allah tərəfindəndir və Onun əmridir».

Ərəb kişi üzünü asimana tutub söylədi:

«İlahi, əgər bu həqiqətdirsə və sənin tərəfindən olursa, göydən daş yağsın və məni yox eləsin».

---

[1] «Nəhcül-bəlağa» Şiqşiqiyyə xütbəsi.

O, bir neçə addım getmişdi ki, asimandan bir daş düşdü, ərəbin başına dəydi və o öldü».[1]

Və bu ayə o zaman nazil oldu.

سَأَلَ سَائِلٌ بِعَذَابٍ وَاقِعٍ لِلْكَافِرِينَ لَيْسَ لَهُ دَافِعٌ مِنَ اللَّهِ ذِي الْمَعَارِجِ

***«(Kafirlərdən) biri vaqe olacaq əzab (qiyamət əzabının nə vaxt və kimə üz verəcəyi) barədə soruşdu. (O əzabı) kafirlərdən dəf edə biləcək bir kimsə yoxdur! (O əzab yüksək) dərəcələr sahibi olan Allahdandır!»***[2]

## İkinci məsələ

Peyğəmbərin vəfatından və İslam xilafətinin istiqamətinin dəyişməsindən sonra dindar həmişə Qədiri-Xum hadisəsindən danışırdılar. Ona cürbəcür dəlillər gətirir və müxalifləri məğlub eləyirdilər. Tarix kitablarında müxaliflərə olunan bu etirazlardan çox yazılmışdır.

Əli ibn Əbu Talib (ə) Osmandan sonra zahiri xilafətə çatandan sonra Kufəyə gəldi və orada Rəhbə məhəlləsində xeyli adam toplandı və onlara and içdirdi:

«Sizlərdən hər kim Qədiri-Xum hadisəsini Peyğəmbərdən eşidibsə, ayağa qalxın, şəhadət verin». 24 nəfər və Əhməd ibn Hənbəlin «Müsnəd» kitabının 4-cü cildinin 370-ci səhfəsində yazdığına görə, 30 nəfər ayağa durdu: Hamısı şəhadət verdi ki, biz Qədiri-Xumda Peyğəmbərin özundən eşitdik ki, belə buyurdu: «Mən kimin mövlasıyamsa, Əli onun mövlasıdır». Lakin bir neçə nəfər şəhadət vermədi. Əli ibn Əbu Talib (ə), İbn Malikə və Bəra ibn Azibə buyurdu:

---

[1] Hələbi «Sirə» cild 3, «Məhəmməd peyğəmbər» fəsli.

[2] «Məaric» surəsi, ayə 1-3.

«Niyə siz ayağa qalxıb şəhadət vermədiniz? Siz də başqaları kimi Peyğəmbərdən eşitmişdiniz!» Sonra Əli dedi: «İlahi, əgər bu iki nəfər inad və düşmənçilik üzündən bu işi gizlətdisə, onları (bir dərdə) mübtəla et!»

Ənəs ibn Malik xora xəstəliyinə tutuldu və Bərada yaddaşını və şüurunu itirdi: belə ki, gedib öz evini tapa bilmirdi və deyirdi: «Evimi öncə tapa bilərəm ki, saleh bəndənin mənim haqqımda etdiyi dua müstəcəb olubdur!»

Həzrət Əlinin xilafətini, imamətin və vilayətini tamamilə isbat edən Qədiri-Xum hadisəsinin müxtəsər tarixçəsi bundan ibarətdir.[1]

## ON İKİ İMAM KİMDİR?

İrəliki səhifələrdə işarə etmişdik ki, xilafət və imamət, nübüvvət işlərinin davamıdır, bir xəlifə və imam peyğəmbərdən sonra onları davam etdirir; o, özü peyğəmbər deyildir, ancaq Peyğəmbərin canişinidir ki, cəmiyyəti idarə eləyir, insanların dünyəvi və axirət işlərinin bütünlüklə rəhbərliyi ixtiyarına malikdir, ümmətin müxtəlif sahələrdə işlərinə müdaxilə edən mövlası və vəlisidir və bu şəxs Peyğəmbərin özü kimi Allahın əmri ilə hərəkət etməlidir.

«Bəqərə» surəsinin 30-cu ayəsində Həzrət Adəm bairəsində Allah buyurmuşdur:

إِنِّي جَاعِلٌ فِي الْأَرْضِ خَلِيفَةً

***«Mən yer üzündə bir xəlifə (canişin) yaradacağam».*** Bu xilafət Həzrət Adəmin nübüvvəti ilə eynidir.

Həzrət Davud haqqında Quran buyurmuşdur:

---

[1] «Əl-Qədir» cild 1, səh. 160; Təbəri «Riyaz» cild 2, səh. 160.

يَا دَاوُودُ إِنَّا جَعَلْنَاكَ خَلِيفَةً فِي الْأَرْضِ فَاحْكُمْ بَيْنَ النَّاسِ بِالْحَقِّ

***«Ya Davud! Biz səni yer üzündə xəlifə (və ya əvvəlki peyğəmbərlərə xələf) etdik. Buna görə də insanlar arasında ədalətlə hökm et».***[1]

«İmam» kəlməsi Quranda çox işlənmişdir, ancaq rəhbərliyi və imaməti Xudavənd özünə və öz iradəsinə aid etmişdir. «Bəqərə» surəsinin 124-cü ayəsində Həzrət İbrahim Xəlilə buyurmuşdur:

وَإِذِ ابْتَلَىٰ إِبْرَاهِيمَ رَبُّهُ بِكَلِمَاتٍ فَأَتَمَّهُنَّ ۖ قَالَ إِنِّي جَاعِلُكَ لِلنَّاسِ إِمَامًا ۖ قَالَ وَمِنْ ذُرِّيَّتِي ۖ قَالَ لَا يَنَالُ عَهْدِي الظَّالِمِينَ

***«Yadına sal ki, İbrahimi öz Rəbbi bir neçə sözlə (bəzi əmrləri ilə) imtahana çəkdiyi zaman o, (Allahın əmrlərini) tamamilə yerinə yetirdi. (Belə olduqda Allah ona: ) «Səni insanlara imam (dini rəhbər, başçı) təyin edəcəyəm», -dedi. (İbrahim isə:) «Nəslimdən necə?» – deyə soruşdu. (Allah onun cavabında: ) «(Sənin nəslindən olan) zalımlar mənim əhdimə (imamlığıma) nail olmazlar», - buyurdu».***

«Ənbiya» surəsinin 73-cü ayəsində İsaqın və Yaqubun rəhbərliyi barədə buyurmuşdur:

وَجَعَلْنَاهُمْ أَئِمَّةً يَهْدُونَ بِأَمْرِنَا

***«Biz onları əmrimizlə (insanları) doğru yola gətirən imamlar (rəhbərlər) etdik».***

Əlbəttə burda imamət nübüvvətlə bərabərdir. «Səcdə» surəsinin 24-cü ayəsində İsrail övladlarının bəziləri haqqında buyurmuşdur:

---

[1] «Sad» surəsi, ayə 26.

وَجَعَلْنَا مِنْهُمْ أَئِمَّةً يَهْدُونَ بِأَمْرِنَا لَمَّا صَبَرُوا ۖ وَكَانُوا بِآيَاتِنَا يُوقِنُونَ

***«(Çətinliklərə) səbr etdikləri və ayələrimizə ürəkdən inandıqları üçün Biz onlardan (İsrail oğullarından) əmrimizlə (insanlara) haqq yolu göstərən rəhbərlər təyin etmişdik».***

Mülahizə etdiyimiz kimi, Quran imaməti ilahi bir iş kimi təqdim etmişdir ki, Xudavənd onu xüsusi insanlara layiq bilmişdir və bu elə bir mənsəbdir ki, o, təqvalı və imanlı şəxslər üçün nəzərdə tutmuşdur və elə məsələ deyildir ki, onu insan təyin edə bilsin – bu, «o imamdır ki, əgər bir kəs ölərsə onu tanımazsa, elə bil ki, cahiliyyət dövründə ölmüşdür».

İmam Əhməd ibn Hənbəl özünün «Müsnəd» kitabında bir hədisdən danışarkən demişdir: «Hər kəs imamsız ölsə, cahiliyyət zamanında ölmüş kimidir».[1]

## İSLAM PEYĞƏMBƏRİ İMAMLAR HAQQINDA NƏ BUYURMUŞDUR?

Şiələrin və sünnilərin kitablarında mötəbər bir hədisdə qeyd edilmişdir ki, İslam peyğəmbəri xəbər vermişdi: «Məndən sonra ümmət arasında imamlar olacaqdır ki, İslamın izzəti və əzəmətidir və İslamın müqəddəs dininin üstünlüyü onların vücudu ilə bağlıdır; onların hamısı Qüreyş tayfasındandır və sayları on iki nəfərdir».

Mən bu hədisləri sünni qardaşların mötəbər kitablarından nəql edirəm. Getsinlər, baxsınlar, oxusunlar, əgər doğrudursa, başqalarına da danışsınlar!

Buxari özünün «Səhih» kitabında Cabir ibn Sümrədən rəvayət etmişdir ki, Peyğəmbərdən eşitdim ki, buyurdu: «Sizin

---

[1] Əhməd ibn Hənbəl «Müsnəd» cild 4, səh. 96.

on iki nəfər əmiriniz olacaqdır. Sonra astadan bir kəlmə (cümlə) söylədi. Atamdan «Peyğəmbərin astadan dediyi bir kəlmə (cümlə) nə idi? - deyə soruşanda dedi: «O, buyurdu: «Onların hamısı Qüreyşdəndir».[1]

Əbu Davud «Səhih» kitabında Cabir ibn Sümrədən nəql etmişdir: «Peyğəmbərin belə buyurduğunu eşitdim: «Bu din 12 xəlifəyə qədər izzətlidir, camaat təkbir dedi, ağladı. Sonra Peyğəmbər astaca bir cümlə söylədi: Atdamdan (nə dediyini) soruşanda dedi: (Peyğəmbər) buyurdu: «Onların hamısı Qüreyşdəndir».[2] Əhməd ibn Hənbəl özünün «Müsnəd» kitabında nəql etmişdir: Peyğəmbər buyurdu: «Bu ümmətin on iki xəlifəsi olacaqdır».[3] Termizi «Səhih» kitabında rəvayət etmişdir: Peyğəmbər buyurdu: «Məndən sonra on iki əmir olacaqdır: onların hamısı Qüreyşdəndir».[4]

Müslim «Səhih» kitabında nəql etmişdir: «Peyğəmbər buyurdu: «İnsanların işi o vaxta qədər davam edəcəkdir ki, onlar üçün on iki nəfər xəlifə olsun və onların hamısı Qüreyşdən olacaqdır».[5]

Təbarani «Müsnəd»də demişdir: «İslam peyğəmbəri buyurdu: «Bu ümmət üçün on iki hakim və vəli olacaqdır: onları xar hesab edən kəslərin onlara zərəri dəyməz. Onların hamısı Qüreyşdəndir». Sünnilərin böyük alimlərindən biri olan İmam Siyuti «Tarixul-xüləfa» kitabında demişdir: «Peyğəmbər buyurdu: «Bu ümmət həmişə əzizdir və xüdavənd onlara o

---

[1] «Səhih Buxari» cild 4, səh. 175.
[2] «Səhih Davud» cild 4, səh. 207.
[3] «Müsnəd ibn Hənbəl» cild 5, səh. 106.
[4] «Səhih Termizi» cild 2, səh. 25.
[5] «Səhih Müslim» cild 2, səh. 191; Müntəxəbi «Kənzül-ümmal» cild 5, səh. 312.

zaman qədər köməklik edər ki, on iki xəlifə ona rəhbərlik etsin. Onların hamısı Qüreyşdəndir».

İslam peyğəmbərindən bu məzmunda rəvayətlər çoxdur, hamısını bəql etmək lazım deyil və bu rəvayətlərin hamısı mötəbər və düzgündür.

Sünnilərin böyük alimlərindən olan Molla Suleymani Hənəfi «Yünabiül-məvəddə» kitabında yazır: «Rəvayətlərdə qeyd olunan xüsusiyyətlərdən məlumdur ki, İslam peyğəmbərinin on iki xəlifədən məqsədi həmin on iki imamdır ki, o Həzrətin öz Əhli-beytindəndirlər. Çünki onların başqaları olması qeyri-mümkündür. Xüləfai-Rəşidin ola bilməz - onlar dörd nəfərdir; Əməvi padşahları ola bilməz - on iki nəfərdən çoxdular və bundan əlavə, onlar İslamın izzət və əzəməti olmamışlar. Bəni-Abbas xəlifələrinin də sayı on iki nəfərdən artıqdır, bundan əlavə onlar heç vaxt Peyğəmbər Əhli-beytinin haqqını qorumamışlar. Buna görə, belə deməkdən başqa bir çarəsi yoxdur: bu rəvayətlər Əhli-beytdən olan on iki imam haqqında söylənmişdir və onlar öz zamanlarının alimi, öz əsrinin ən zahid, ən pak və ən böyük şəxsiyyətləri olmuşlar və nəsəbdə ən üstün idilər; onların elmi İslam peyğəmbərindəndir və onlar bunu öz əcdadlarından irs olaraq qəbul etmiş və elmləri ilahi elmdir.

Bu on iki imam həmin imamlardır ki, Peyğəmbər onları Quranla bərabər özündən sonra ümməti üçün əmanət buraxmışdır və qiyamət günü Kövsər hovuzunun yanında Peyğəmbərə qovuşana qədər bir-birindən ayrılmayacaqlar».

Bu, mötəbər bir hədisdə deyilmişdir. Onlar müsəlmanların vəli-əmridirlər və onlara itaət Allaha və Onun Rəsuluna qeyd-şərtsiz itaət etmək kimi hamı üçün vacibdir. Şeyx Süleyman Qünduzi Hənəfi «Yənəbul-məvəddə» kitabının 495-ci səhfəsində Cabir ibn Yəziddən nəql etmişdir: «Cabir ibn

Abdullah Ənsaridən eşitdim ki, deyirdi: ***«Allaha, onun Rəsuluna və sizdən olan əmr sahiblərinə itaət edin!»*** ayəsi peyğəmbərə nazil olan zaman dedim: «Ya Rəsulullah, Allah və peyğəmbər deyirsiniz onları tanıdıq. Bəs itaət edilmələri sənə itaət kimi olan əmr sahibləri kimlərdir?»

Peyğəmbər buyurdu:

«Ey Cabir, onlar məndən sonra mənim xəlifələrim, canişinlərimdirlər, məndən sonra müsəlmanların imamları və öndərləridirlər. Onların birincisi Əli ibn Əbu Talib, sonra Həsən və Hüseyn, sonra Əli ibn Hüseyn, ondan sonra Məhəmməd ibn Əlidir ki, Tövratda Baqir adlı ilə məşhurdur: «Ey Cabir, sən onu dərk edəcəksən, onu görəcəksən: onu gördüyün zaman məndən ona salam söylə». Ondan sonra Sadiq Cəfər ibn Mühəmməd, ondan sonra Musa ibn Cəfər, ondan sonra Əli ibn Musa, sonra Məhəmməd ibn Əli, sonra Əli ibn Məhəmməd, sonra Həsən ibn Əli, sonra adı və künyəsi adım və künyəm olan (Məhəmməd Əbülqasim) şəxsdir, o, yer üzündə Allahın və bəndələrinin arasında höccətdir və o da Həsən ibn Əlinin oğludur. O həmin kəsdir ki, Xudavənd onun əlilə Şərqlə Qərbi fəth edər və o kəsdir ki, öz işlərinin nəzərindən qeyb olar, onun qeybətində ancaq qəlbləri xalis imanla dolu olanlar onun ümmətində sabit qalarlar.

Cabir dedi: «Ya Rəsulullah, onun şiələri onun qeybi zamanı ondan xeyir görər, istifadə edərlərmi?»

Peyğəmbər buyurdu:

«Məni peyğəmbərliyə məbus edənə and içirəm ki, şiələr onun qeybi zamanı ondan nur kəsb edəcəklər, onun valiliyinə bəslədikləri dostluq üzündən qeybətindən fayda gətirəçəklər - fayda günəş buludlar içində gizləndiyi zaman insanların ondan görürdüyü faydaya bənzər».

## PEYĞƏMBƏRİN SON XAİŞİ

Peyğəmbəri-Əkrəmin (s) bərəkətli ömrü yavaş-yavaş keçib gedirdi və həyatının son günlərini yaşayırdı. Vəfalı dostları və müqəddəs Əhli-beyti bilirdi ki, tezliklə ümmətin mehriban və ürəyi yanan Peyğəmbəri (s) bu dünyadan köçəcəkdir. O Həzrətin sözləri də bundan xəbər verirdi.

Nəhayət, İslam peyğəmbəri hicri-qəməri 11-ci ilin səfər ayında xəstələndi və günbəgün o Həzrətin xəstəliyi şiddətlənirdi. O bilirdi ki, ölümündən sonra ixtilaflar meydana gələcəkdir; nəsihətlərlə, moizələrlə və başqa işlərlə özündən sonra yaranacaq bu ixtilafların qarşısını almağa çalışırdı. İslam peyğəmbərinin dünyadan köçməzdən qabaq gördüyü mühüm işlərdən biri bu idi: elə bir şey yazmaq istəyirdi ki, ondan sonra heç bir ixtilaf yaranmasın. Lakin təəssüf ki, səhabələrin bəzisi buna mane oldu və bu ixtilafın baş verməsinə səbəb oldu.

Peyğəmbərin (s) səhabələri və qadınlar ətrafında idilər. Buyurdu: «Kağız və gətirin, elə bir şey yazım ki, məndən sonra iki nəfər bir-biri ilə müxalifət eləməsin».

Ömər dedi:

«Lazim deyil. Bu kişi bihuş halda hədyan söz söylər». Bəziləri dedi: «Gətirin». Bəziləri Ömərə tərəf çıxdı. Nəhayət, səs-küy qalxdı. Peyğəmbər (s) gözünü açdı və buyurdu: «Bayıra çıxın. Məgər Allah buyurmamışdırmı kı, səsinizi Peyğəmbərin səsindən çox ucaltmayın?» Və hamını öz məclisindən çıxartdı. Mən bilmirəm: bu nə fikir idi ki, Ömər elədi? Məgər Allah «Vənnəcm» surəsində buyurmamışdır ki, «Peyğəmbər nəfsinin istəyinə əsasən söz demir?» Nə deyirsə, vəhdir ki, Cəbrayıl Allahdan gətirir?! Məgər bu düzgün iş idimi ki, Peyğəmbərin ömrünün son günlərində onu incitsinlər

və xaişini qəbul etməsinlər? O özü üçün bir şey istəmirdi. O istəyirdi ki, onun vəfatından sonra müsəlmanların ittifaqı və birliyi hifz olunsun, hətta iki nəfər də bir-birilə müxtəlifət etməsin.

Bu yazı-vəsiyyət hər nə imişsə, bir rəhmət və bərəkət olacaqmış. İstər xilafət haqqında, istər imamət və vilayət haqqında, Əhli-beyt haqqında, Əli haqqında, ya Əbu Bəkr, ya Ömər, ya Osman, ya Müaviyə, ya Yezid, ya başqa bir şəxs haqqında olsun; mühacirlər haqqında, ənsar, ya namaz, həcc, cəhad hökmləri haqqında; hər nə olsaydı da, bu faydası olacaqdı ki, ixtilaf yaranmayacaqdı və iki nəfər də olsa belə bir-biri ilə münaqişə etməyəcəkdi.

Görəsən Ömər, Peyğəmbərdən yaxşı bilirdi, ya burada bir siyasi məqsəd vardır ki, o kağızın yazmasına mane oldular. Biri deyir: Ömər Peyğəmbərin müsibətinin fikrindən divanə olmuşdu, ya qorxurdu ki, Peyğəmbərin məktubuna əməl etməsinlər, hökumətsizlik olsun.

Sünni alimlərinin bəzilərinin yazdığı bu sözləri bir kimsə qəbul etmir. Məgər Peyğəmbər bilmirdi ki, məktubunun faydası var ya yox?

Sünni qardaşların böyük alimləri Buxarinin «Səhih»ində və digər mötəbər kitablarda yazılmış bu məsələyə çatan zaman doğrudan da heyrət içində qalırlar ki, nə desinlər, Ömərin sözlərini necə izah etsinlər?

Çarəsiz qalaraq Ömərin adını burdan atıb, «səhabələrdən biri Peyğəmbərə hədyan deyər!» - söylədilər. Amma gördülər adı dəyişmək düz deyil, çünki bunu çoxları yazıblar ki, bu sözləri deyən Ömər idi. Naçar qalıb kəlməni cümləni dəyişdilər. Yazdılar: Ömər dedi: «Dərd ona qalib gəldi». Bu ibarə də əvvəlki mənanı verir: Bu da bu çəyinliyi həll etmədi.

Olduğum İslam ölkələrinin birində qazetlərin biri Ömərin bu sözlərini çap etmişdi. Sünni qardaşlardan bir necəsi qazeti götürüb mənim yanıma gəldilər; onlardan biri alim idi. Qazeti qabağıma atıb dedi: «Görün mütəəssib şiələr xəlifə haqqında nə yazmışlar? Qazeti oxudum, dedim «Əfəndi, bu söz Buxarinin «Səhih»ində, Hələbi Şafeinin «Sirə»sində və sizin digər kitablarınızda vardır, müraciət edin, oxuyun. Dedi: «Axı necə ola bilər ki, belə sözü Peyğəmbərə desin?» Dedim: «Mən də onu deyirəm. Axı bu nə söz idi o, Peyğəmbərə söylədi? Özüdə o Həzrətin ömrünün sonunda!»

O alim dedi:

«Mən belə sözü özüm həzm edə bilmirəm!» Dedim: «Mən də həzm edə bilmirəm!» Bu sözdən narahat oldu, dedi: «Deyəsən, Ömərin Allah Rəsuluna imanı yox imiş!» Dedim: «Bunu mən bilmirəm, sən özün bilərsən». Qazeti götürüb getdi və davamız da tamam oldu.

## «ÜZR BƏDTƏR ƏZ GÜNAH»

İslam tarixində elə hadisələr vardır ki, həqiqətən narahatedici, hətta bəzən tarix üçün ləkədir.

Məsələn, mühacirlərin və ənsarın Osmanı öldürmək üçün yazışması, bir neçə gündən sonra cənazəsinin yəhudilər qəbristanlığında dəfni və ya Peyğəmbərin qadını Aişənin Əli ibn Əbu Talib (ə)-in döyüşünə gəlməsi və ya Peyğəmbərin əziz övladı İmam Hüseyni (ə) şəhadətə yetirməsi, Peyğəmbər Əhli-beytini sürgün və əsir etmək, ya şəhidlərin başının nizələrə taxılması, təqribən 200 il məscidlərdə, minbərlərdə Müaviyənin və tərəfdarlarının əmri ilə Əli ibn Əbu Talibi (ə) lənətləmək, sünni əhlinin kitablarında qeyd olunmuş yüzlərlə digər cinayətlər (Yezid tərəfindən Mədinə əhlinin qətlə

yetirilməsi, bir həftə onların mal və namusuna onun əsgərlərinin təcavüzə icazə verilməsi, Kəbəni mancanaqlarla içurmaq, Allah evinin örtüyünə atəş vurulması və s.) Bu cinayətlərin dəhşətlisi bu əsrdə Yezidi Rəsulullahın xəlifəsi, əmirəl-möminin deyə təqdim etmək və onun haqqında kitab yazmaqdır; bu kitab Səudiyyə Ərəbistanında qələmə alınmış və çap edilmişdir.

Hər şeydən daha təəccüblüsü budur ki, səhabələr müctəhiddirlər və hamısı ədalətlidir. Onları tənqid etmək olmaz, onların bütün səhvlərinin üstünü örtməliyik. İndi ki, söz bu məqama yetişdi, səhabələrin evinə baş çəkmək, onları bir qədər yaxşı tanımaq, yaxından tanış olmaq pis olmazdı. Görək sahabələr kimlərdir? Doğrudanmı onların hamısı müctəhid və adilidir, ya onlar da bizim kimi islami qayda-qanuna tabe olmalıdırlar? Xudavəndi-aləm Quranda buyurmuşdur:

يَا أَيُّهَا النَّاسُ إِنَّا خَلَقْنَاكُمْ مِنْ ذَكَرٍ وَأُنْثَىٰ وَجَعَلْنَاكُمْ شُعُوبًا وَقَبَائِلَ لِتَعَارَفُوا ۚ إِنَّ أَكْرَمَكُمْ عِنْدَ اللَّهِ أَتْقَاكُمْ ۚ إِنَّ اللَّهَ عَلِيمٌ خَبِيرٌ

***«Ey insanlar! Biz sizi bir kişi və bir qadından (Adəm və Həvvadan) yaratdıq. Sonra bir-birinizi tanıyasınız (kimliyinizi biləsiniz) deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Allah yanında ən hörmətli olanınız Allahdan ən çox qorxanınızdır (pis əməllərdən ən çox çəkinəninizdir). Həqiqətən, Allah (hər şeyi) biləndir, (hər şeydən) xəbərdardır».***[1]

Yəhudilər dedilər: «Biz İbrahimə ən yaxın olanlar və ona layiq olanlarıq».

---

[1] «Hucurat» surəsi, ayə 13.

Nəsranilər deyirdilər: «Biz İbrahimə yaxın olanlarıq». Ayə nazil oldu:

إِنَّ أَوْلَى النَّاسِ بِإِبْرَاهِيمَ لَلَّذِينَ اتَّبَعُوهُ وَهَٰذَا النَّبِيُّ وَالَّذِينَ آمَنُوا ۗ وَاللَّهُ وَلِيُّ الْمُؤْمِنِينَ

***«Şübhəsiz ki, insanların İbrahimə ən yaxın olanı onun ardınca gedənlər, bu Peyğəmbər (Muhəmməd) və ona iman gətirənlərdir. Allah möminlərin dostudur!»***[1]

Peyğəmbərin (s) qadınları ona hamıdan daha yaxın idilər və ümmətin analarıdırlar. Gecə-gündüz Peyğəmbərin (s) yanında idilər. Təbii ki, İslam peyğəmbəri də onlarla yaşayırdı, ər-arvadlığın təbii və adi rəftarları onların da arasında var idi. Bununla belə onun həyat yoldaşları haqqında Xudavənd belə buyurmuşdur:

يَا أَيُّهَا النَّبِيُّ قُلْ لِأَزْوَاجِكَ إِنْ كُنْتُنَّ تُرِدْنَ الْحَيَاةَ الدُّنْيَا وَزِينَتَهَا فَتَعَالَيْنَ أُمَتِّعْكُنَّ وَأُسَرِّحْكُنَّ سَرَاحًا جَمِيلًا وَإِنْ كُنْتُنَّ تُرِدْنَ اللَّهَ وَرَسُولَهُ وَالدَّارَ الْآخِرَةَ فَإِنَّ اللَّهَ أَعَدَّ لِلْمُحْسِنَاتِ مِنْكُنَّ أَجْرًا عَظِيمًا

***«Ya Peyğəmbər! Zövcələrinə belə de: "Əgər siz dünya həyatını və onun dəbdəbəsini istəyirsinizsə, gəlin sizə talaq haqqınızı verim və gözəl bir tərzdə boşayım! Yox, əgər Allahı, Onun Rəsulunu və axirət yurdunu istəyirsinizsə, (bilin ki) Allah içərinizdən yaxşı işlər görənlər üçün böyük bir mükafat hazırlamışdır».***[2]

Bu ayədə onlara əcr və səvab vədəsi verilmişdir ki, yalnız peyğəmbərin qadınları olduğu üçün yox, həm də yaxşı əməllər sahibidirlər.

---

[1] «Ali-İmran» surəsi, ayə 68.
[2] «Əhzab» surəsi, ayə 28-29.

يَا نِسَاءَ النَّبِيِّ مَنْ يَأْتِ مِنْكُنَّ بِفَاحِشَةٍ مُبَيِّنَةٍ يُضَاعَفْ لَهَا الْعَذَابُ ضِعْفَيْنِ ۚ وَكَانَ ذَٰلِكَ عَلَى اللَّهِ يَسِيرًا وَمَنْ يَقْنُتْ مِنْكُنَّ لِلَّهِ وَرَسُولِهِ وَتَعْمَلْ صَالِحًا نُؤْتِهَا أَجْرَهَا مَرَّتَيْنِ وَأَعْتَدْنَا لَهَا رِزْقًا كَرِيمًا

***«Siz ey Peyğəmbərin zövcələri! Sizdən hansı biriniz açıq-aşkar bir çirkin (günah) iş görsə, onun əzabı ikiqat olar. Bu, Allah üçün asandır! Sizdən hər kim Allaha və Rəsuluna itaət edib yaxşı işlər görsə, onun mükafatını ikiqat (başqa qadınların mükafatlarından iki dəfə artıq) verərik. Biz onun üçün (Cənnətdə) tükənməz (gözəl, minnətsiz) ruzi hazırlamışıq».***[1]

Bu ayələrdə əcr və səvab yalnız Peyğəmbərin qadını olmaq üçün deyil, yaxşı və saleh əməllər sahibi üçün əsas götürülmüşdür. Peyğəmbərin səhabəsi olmaq da belədir. Fəzilət və başqalarına nisbətən üstün olmaq, onların əməl və səmimiyyəti ilə bağlıdır; hər kəs Allaha, peyğəmbərə iman, saleh əməl sahibi olsa, insanların ən yaxşısıdır və onların haqqında da «rəziallah» demişdir.

«Bəyyinə» surəsinin 7 və 8-cü ayələrində Allah buyurmuşdur:

إِنَّ الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ أُولَٰئِكَ هُمْ خَيْرُ الْبَرِيَّةِ جَزَاؤُهُمْ عِنْدَ رَبِّهِمْ جَنَّاتُ عَدْنٍ تَجْرِي مِنْ تَحْتِهَا الْأَنْهَارُ خَالِدِينَ فِيهَا أَبَدًا ۖ رَضِيَ اللَّهُ عَنْهُمْ وَرَضُوا عَنْهُ ۚ ذَٰلِكَ لِمَنْ خَشِيَ رَبَّهُ

***«İman gətirib yaxşı əməllər edənlər isə yaradılmışların ən yaxşılarıdır. Onlardan öz Rəbbi yanındakı mükafatı (ağacları) altından çaylar axan Ədn cənnətləridir. Onlar orada əbədi qalacaqlar. Allah onlardan razıdır, onlar da Allahdan. Bu (nemətlər) Rəbbindən qorxanlar üçündür!»***

[1] «Əhzab» surəsi, ayə 30-31.

İndi hər kəs bu sifətə malikdirsə və əməli salehdirsə, o, Allahın yanında əziz və Allah ondan xoşhaldır. Sonradan dünyaya gəlmiş mühacirlərə, ənsara və ya hər müsəlmana «Allah ondan razı olsun!» demək səhabəyə məxsus deyildir və bu kəlməni onların adına qeyd etmişlər, çünki onlar da başqaları kimidirlər. Bəli, əgər səhabə olmağın şərafət və fəzilətini qorusalar və Peyğəmbərin göstərişinə tabe olsalar, Peyğəmbərdən sonra xəta və günaha mürtəkib olmasalar, daha çox etirama layiqdirlər. Onların səhabə olmaqlarının haqqına riayət etmək bizim hamımıza lazımdır, çünki onlar İslam yolunda cihad etmişlər. Lakin onların hamısı müctəhid və ədalətli deyildilər ki, nə iş görsələr deyək bunlar səhabədir; hər səhabə isə müctəhid və adildir! Bu barədə şiələrdən və sünnilərdən olan İslam alimlərinin dediklərinə nəzər salaq, görək səhabə kimdir?

# SƏHABƏ OLMAĞIN MİZANI VƏ MEYARI

## Birinci söz

İbn Hacər «İsabə» kitabının səhabə sözünün tərəfi haqqında danışarkən deyir: «Sahabə o kəsdir ki, Peyğəmbəri görmüş olsun, ona iman gətirmiş, İslam dinində (müsəlman kimi) də ölmüş olsun».[1]

Beləliklə, Peyğəmbəri görmüş və ona iman gətirmiş hər kəs səhabədir: Peyğəmbəri istər çox görmüş olsun, istər az; ondan hədis eşitmiş olsun, ya yox; Peyğəmbərlə düşmən savaşına getmiş olsun, ya yox; - fərq etməz - o, Peyğəmbərin səhabəsidir. Əgər biri kor olubsa, Peyğəmbərin camalını görməyibsə, onda necə?

## İkinci söz

Səhabə o şəxsdir ki, Peyğəmbərlə heç olmasa bir dəfə namaz qılmış olsun - istər Peyğəmbərlə savaşda iştirak etsin ya etməsin - fərqi yoxdur.

## Üçüncü söz

Səhabə o şəxsdir ki, Peyğəmbərlə savaşda iştirak etmiş olsun. Savaşda iştirak etməyən kəs səhabə deyil. Bu fikr çox əsassızdır, çünki səhabələrin çoxu qoca və zəif idi, savaşda iştirak edə bilmirdilər.

---

[1] «İsabə» cild 1, səh. 10.

## Dördüncü söz

Səhabə o şəxsdir ki, Peyğəmbərdən bir rəvayəti olsun. Bu hökmə əsasən, əgər savadsız bir bədəvi ərəb bir gün Peyğəmbərin məscidinə gəlmişsə və ondan bir rəvayət danışırsa, o, səhabədir.

## Beşinci söz

Əgər bir kəs Peyğəmbərin yaşadığı əsrdə yaşamışsa, ancaq nə Peyğəmbəri görmüş, nə onunla namaz qılmış, nə bir savaşda iştirak etmiş və nə də ondan bir rəvayəti vardır - o da səhəbədir. Bu sözün mənası odur ki, İslam dinini Peyğəmbərin zamanında qəbul etmiş istər Məkkədə, istər Mədinədə, Həbəşdə, İranda ya Rumda olsun - fərqi yoxdur - hər bir şəxs səhabədir.

Bu beş söz sünnü qardaşların kitablarında mövcuddur və «Əl-İsabə» kitabının 1-ci cildinin, 10-cu səhifəsində zikr olunmuşdur.

Məgər bütün bu şəxslərə, sünnilərin dediyi kimi, müctəhid və ədalətli demək olarmı?

Məgər Peyğəmbəri yalnız görmüş və müsəlman olaraq ölmüş hər şəxs müctəhid və adildir?

Ya Peyğəmbərlə bircə dəfə namaz qılan adam müctəhid və adildir? Ya savaşda onunla iştirak etmiş adam müctəhid və adildir? Yaxud Peyğəmbərdən bircə rəvayəti var - o müctəhid və adil səhabədir? Əgər bunlara səhabə də demək mümkünsə, ancaq müctəhid və adil olmaq bunlarla sübut yetməz.

Şiələr deyirlər: Səhabə o şəxsdir ki, bir müddət Peyğəmbəri-Əkrəmlə bir yerdə olmuş, namazlarında,

məclislərində iştirak etmiş, onun yoldaşlarından və dostlarından sayılmış, əksərlərindən olmuş, dini, siyasi, hərbi və iqtisadi işlərində çalışmışdır. Bu şəxslərdən də hər kəs Peyğəmbərin sağlığında və onun vəfatından sonra səhabə olmağın hörmət və şərəfini saxlamışsa, Qurandan, dindən, təqvadan xaricə çıxmamışsa, o, səhabə olmağın hörmət və şərəfinə malikdir. Amma əgər Peyğəmbərin vəfatından sonra ruhiyyəsi, təqvası və əxlaqı dəyişmişsə, onda başqa adi adamlar kimidirlər.

Ancaq onun ictihadı və müctəhid olmağı elmi bir məqamdır: hər kəs Quranı və Allah Rəsulunun sözlərini yaxşı bilirsə və Allahın hökmlərini onlardan (Quran və sünnətdən) anlayırsa, ona müctəhid demək olar. Ancaq dəlilsiz-sübutsuz hökm verən, halalı haramı, haqqı batil edən kəslərə əsla müctəhid olmaz. Əgər bu işi kim dəlilsiz görərsə, bu siyasi bir məsələdir və ilahi və şəri məsələ deyildir.

## İSLAM PEYĞƏMBƏRİ SƏHABƏ BARƏSİNDƏ DEDİKLƏRİ

Peyğəmbərin (s) səhabələrinin hamısı bir cür deyildi: nə elmdə, nə təqvada, nə əxlaqda, nə nəcabətdə, nə şücaətdə, nə adamlarda və öz ailəsi ilə rəftarda. Bəziləri yaxşı, bəziləri pis idi; bəziləri çox yaxşı, bəziləri isə çox pis idi. Hətta onların bəzisi peyğəmbərin vəfatından sonra dindən döndülər, mürtəd oldular və ya şərab içdilər. Xəlifə onları döydürdü.

Əlqəmə adlı birisi Peyğəmbərin (s) sağlığında İslamı qəbul etdi, Allahın Rəsulunun (s) söhbətlərini dərk etdi, lakin Əbu Bəkrin zamanında İslam dinindən döndü. Əbu Bəkr Xalidi onu tutmaq üçün göndərdi, lakin o qaçdı. Bir müddətdən sonra qayıtdı və yenidən İslam dinini qəbul etdi.

Ömərin zamanında şərab içdi. Ömər onu taziyanə ilə döydürdü. Yenə dindən əl çəkdi, qaçdı. Sonra Mədinəyə gəldi. İslamı qəbul etdi. Ömər onu Huran şəhərinə hakim göndərdi.

Sünnilərin yanında xeyli möhtərəm sayılan, İslam peyğəmbəri adına çoxlu hədislər rəvayət etmiş Əbu Hüreyrə iki ildən bir qədər az Peyğəmbərin (s) yanında olmuşdur. Peyğəmbər onu öz sağlığında müəzzin kimi Bəhreynə - Əlinin yanına göndərmişdi. Peyğəmbər vəfat edəndə Mədinədə deyildi. Əbu Bəkrin zamanında Mədinəyə gəldi. Sonra yenə Bəhreynə qayıtdı. Ömərin vaxtında da Bəhreyndə idi.

Beytül-maldan çoxlu sərvət topladı. Ömər onu Mədinəyə çağırdı. Belə dedi:

«Ey Allahın düşməni. Allahın malını oğurladın. Bu qədər sərvəti haradan əldə etmisən?» - deyə özü taziyanə ilə kürəyinə vurdu və sərvətinin yarısını ondan aldı.

Bu barədə Bəlazurinin «Fütuhül-buldan» kitabında müfəssəl yazılmışdır. Maraqlananlar müraciət edə bildilər.

Əbu Bəkrin və Ömərin zamanında Əbu Hüreyrənin hədis söyləmək cürəti yox idi.

Aişə, Əbu Hüreyrənin Peyğəmbər adına xeyli hədis söylədiyini eşitdiyi zaman, ayaqqabısını onun başına çırpıb dedi:

«Ey yəhudi oğlu, bu hədisləri nə vaxt Peyğəmbərdən eşitdim ki, biz və başqaları orada olmamışıq?»

Amr As Ömərin zamanında Misirin valisi oldu, çoxlu sərvət topladı. Ömər bir nəfəri göndərdi, sərvətinin yarısını əlindən aldırdı. Ona yazdı: «Mən səni Misirə göndərəndə keçi qəzilindən olan bir əbandan başqa heç nəyin yox idi. Bu qədər mal sənin üçün hardandır?»

Amma Əhməd ibn Hənbəl özünün «Müsnəd» adlı kitabının 5-ci cildin 390-cı səhifəsində və Müslimin «Səhih»

kitabının 8-ci cildin 122-ci səhifəsində yazmışlar: «Təbuk savaşında zahirdə hamısı müsəlman və səhabə olan bir qrup münafiq yolda Peyğəmbəri öldürmək istəyirdi ki, Cəbrail xəbər gətirdi və Peyğəmbər onların xəyanətindən hali oldu».

Belə olan surətdə bütün səhabələri müctəhid və ədalətli saymaq olarmı? Onların da səhvləri olmuşdur və cənnət, cəhənnəm də bizim əlimizdə deyildir: hər kəsin yerini Allah özü bilir: istədiyini bağışlayır, istəmədiyini bağışlamaz.

Buxari və Termizi «Maidə» surəsi təfsirində Peyğəmbərdən nəql ediblər. «Qiyamət günü ümmətin kişilərindən bir qrupunu mənim yanıma gətirəcəklər. Onların əlləri bağlı olacaq, mən deyərəm: «Ya Rəbb, onlar mənim əshabımdır». Sonra səs gələr: «Sən bilmirsən, bunlar səndən sonra nələr etdilər».

Müslimin «Səhih» kitabının «Fəzilətlər» bölməsində Peyğəmbərdən rəvayət etmişdir: «Kövsər hovzunun yanına mənim ümmətimin kişilərindən bir qrup daxil olar. Mənimlə müsahib yadaş olan, yəni mənim səhabələrimdən olan bu adamları mən görəndə, onlar mənə gələndə mane olarlar, yanıma gəlməyə qoymazlar. Mən deyərəm: «Ey mənim Pərvərdigarım, bunlar bmənim əshabımdır». Cavab gələr: «Sən bilmirsən, bunlar səndən sonra nə işlər gördülər».

Sünni qardaşların ən mötəbər kitablardan saydıqları Buxarinin «Səhih» kitabında Əqəbət ibn Amirdən nəql olunmuşdur:

«Peyğəmbər bir hədisdə buyurdu: «Mən bundan qorxuram ki, siz müşrik olasınız. Ondan qorxuram ki, dünya malı əldə etmək üstündə bir-birinizlə rəqabətə qalxasınız».

Bu hədislər o rəvayətlərdəndir ki, Buxari və Müslim «Səhih»də və «Lölöi-mərcan» kitabında (İstanbul çapı, cild 2, səh. 22) nəql olunmuşdur. Lakin insafsız şərhçi «əshab»

kəlməsini «ümmət» kimi məna etmişdir; öz fikrində güya əshaba bir xidmət göstərmişdir, ancaq başa düşməmişdir ki, Peyğəmbərin kəlamına və sünnətinə xəyanət eləmişdir.

Hamısının müctəhid və adil hesab edildiyi səhabələrin vəziyyətinin müxtəsər icmalı belədir.

Belə olması doğrudan da çox təəssüf doğurucu olar ki, Peyğəmbərin xidmətində olmuş hər ərəbə müctəhid və adil deyək.

## BİR ALİMLƏ MÜBAHİSƏ

Cavanlıq illərində hansı məmləkətə səfər edirdimsə, alimlərlə, tədqiqatçılarla mütləq görüşər, onların biliyindən istifadə edərdim, həmçinin kitabxanalara və müzeylərə gedərdim. Və heç bir məmləkətdə də heyvanlar parkına getməkdən qalmazdım. Çünki dəmir qəfəslərdə məhbus olan bu heyvanlardan heç bir zərər və heç bir cinayət görünməmişdir: yalan, yersiz təəssüb, riyakarlıq, nifaq da görülməmişdir. Ancaq aman bu insanlardan! Əgər onların yaxşı cəhətləri varsa, elə cinayətləri də vardır ki, heç bir yırtıcı heyvan bunları etməmişdir. Hər halda, o məmləkətlərin birində böyük sünni alimlərindən birinin görüşünə getdim. O böyük müzəyyən bir otaqda oturmuşdu və bir çox adam da hüzurunda ədəblə dayanmışdı. Salam verdim. Lakin o böyük şəxs cavab vermədi. Mən «Salam» ayəsini oxudum. Orda Allah buyurur:

وَإِذَا حُيِّيْتُمْ بِتَحِيَّةٍ فَحَيُّوا بِأَحْسَنَ مِنْهَا أَوْ رُدُّوهَا

***«Sizə salam verildiyi zaman onu daha gözəl alın və ya (eynilə sahibinə) qaytarın!»***[1]

---

[1] «Nisa» surəsi, ayə 86.

Bu alim mənə baxdı və dedi: «Əfv edin, mən söhbətə məşğul idim!» Dedim: «Bu sənin yadına salmaq idi, etiraz deyildi». Soruşdu: «Haralısınız?» Dedim: «İranlıyam!» Soruşdu: «Şiəsən ya sünnisən?» Dedim: «12 imama inanan şiəyəm. Sünnilərdə müxtəlifdir, biz on iki imam şiəsiyik». Dedi: «Siz Peyğəmbərin əshabını lənətləyirsiniz». Dedim: «Bu cahillərin işidir, alimlərin yox. Sizlərdən bəziləri də vardır ki, Peyğəmbərin əshabını lənətləmişdir». Soruşdum: «Əfəndi, kimsə əshabələrdən birini lənətləmiş olsun, buna cəsarət etsin, nə olar?» Dedi: «Kafər olar!» Dedim: «Bəs Müaviyəni nədən kafir saymırsınız ki, ən böyük, ən bilikli, ən şücaətli sahabə olan Əli ibn Əbu Talibi (ə) lənətlədi və camaata da onu lənətləmək göstərişi verdi». Dedi: «Müaviyənin bu işi ictihad üzündən idi». Dedim: «Əgər biz ictihad üzündən hər kəsi lənətləsək, qəbul edərsiniz?» Dedi: «Allah Müaviyəni bağışlar». Dərhal dedim: «Əgər Allah onun bu böyük günahını bağışlarsa, bizi də bağışlar». Utandı, heç nə demədi.

Ümid edirəm ki, Xudavənd bizə həqiqəti görən göz verər ki, hər şeyi və hər kəsi olduğu kimi tanıyaq və xalqa da tanıtdıraq.

İlahi, sən şahid ol ki, mən bu kitabı təəssüb hissindən uzaq olub yazdım və həqiqəti bəyan etməkdən başqa bir məqsədim olmadı və yoxdur. İlahi vəhy olan İslam peyğəmbərinin dedikləri və buyurduqlarını nəzərə çatdırmaqla müsəlmanlar arasında viranedici ixtilafları aradan qaldırmağa bir kömək etmək istədim.

Allah Qurani-Kərimin «Nisa» surəsinin 65-ci ayəsində buyurmuşdur:

فَلَا وَرَبِّكَ لَا يُؤْمِنُونَ حَتَّىٰ يُحَكِّمُوكَ فِيمَا شَجَرَ بَيْنَهُمْ ثُمَّ لَا يَجِدُوا فِي أَنْفُسِهِمْ حَرَجًا مِمَّا قَضَيْتَ وَيُسَلِّمُوا تَسْلِيمًا

***«Amma, xeyr! (Ya Rəsulum!) Rəbbinə and olsun ki, onlar öz aralarında baş verən ixtilaflarda səni hakim (münsif) təyin etməyincə və verdiyi hökmlərə görə özlərində bir sıxıntı duymadan sənə tam bir itaətlə boyun əyməyincə, (həqiqi surətdə) iman gətirmiş olmazlar».***

Bakı şəhəri, 1996 - 1375
SABİRİ HƏMƏDANİ

# MÜNDƏRİCAT

Müqəddimə........................................................................ 5
İslamda imamət və xilafət ................................................... 8
İslam peyğəmbəri imamət və xilafət haqqında vəsiyyət etmişdir ya yox?........................................................................... 9
İmamət və xilafət nədir?.................................................... 11
İmam və imamət ................................................................ 12
İmam peyğəmbər deyil...................................................... 13
Xilafət ................................................................................ 16
İmamət, xilafət və vilayət kimin əlindədir?....................... 17
İslamda ən mühüm məsələ ................................................ 20
Qədiri-xum və Əli ibn Əbu Talibin (ə) xilafəti ................. 21
Müşriklərnən müharibənin elan edilməsi.......................... 23
Peyğəmbərin son həcci və qədiri-xum əhvalatı................. 24
Böyük bir biyabanda böyük bir mərasim .......................... 26
Xudavəndi-aləm Əli ibn Əbu Talib (ə) barəsində buyruğu............ 27
Qədiri-xumda Peyğəmbərin xütbəsi ................................. 27
Qədiri-xum barədə sünni qardaşlardan iki mühüm məsələ ........... 33
Birinci məsələ..................................................................... 33
İkinci məsələ ...................................................................... 34
On iki imam kimdir?........................................................... 35
İslam peyğəmbəri imamlar haqqinda nə buyurmuşdur? ................ 37
Peyğəmbərin son xaişi ....................................................... 41
«Üzr bədtər əz günah» ....................................................... 43
Səhabə olmağın mizanı və meyarı .................................... 48
İslam peyğəmbəri səhabə barəsində dedikləri ................... 50
Bir alimlə mübahisə............................................................ 53

Ayətullah Əhməd Sabiri Həmədani.

İslamda imamət və xilafət.

BAKI - «Sabah» - 1996

**Formatı: 84 x 108 1/32**
**Həcmi: 2,625**
**Tirajı: 1500**
**Sifariş: 285**
**Qiyməti müqavilə ilə**

**Kitab «Qızıl Şərq» icarə mətbəəsində**
**Ofset üsulu ilə şap olunmuşdur.**